# BİRİNCİ YARIMİLLİKDƏ İQTİSADİYYATIMIZ BÖYÜYÜB

Azərbaycan iqtisadiyyatının inkişaf tempi ilə bağlı bu ilin altı aylıq göstəriciləri açıqlanıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2026-cı ilin yanvar-iyun aylarında Azərbaycanda 65 milyard 207 milyon manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal olunub. Bu, ötən ilin eyni dövrünə nisbətən 0,8% çoxdur.

İqtisadi inkişaf templəri digər göstəricilər üzrə də müsbətdir. Bu il iyulun 1-nə Azərbaycanın strateji valyuta ehtiyatları 85 milyard 768,9 milyon ABŞ dolları təşkil edib. Bu, ötən il iyulun 1-nə nisbətən 10,4 % çoxdur. Bununla belə, iyunda ölkənin strateji valyuta ehtiyatları 2 milyard 669,7 milyon ABŞ dolları azalıb.



SƏHİFƏ 10-da

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

11 İYUL ŞƏNBƏ 2026 № 25 (4276) Qiyməti - 60 qəpik www.kaspi.az



4TH SHUSHA GLOBAL MEDIA FORUM

## IV QLOBAL MEDİA FORUMU KEÇİRİLƏCƏK

Dünyanın 54 ölkəsindən 160-a yaxın media nümayəndəsi, ekspert və rəsmi şəxsin iştirak edəcəyi forumda 30-a yaxın beynəlxalq informasiya agentliyi və 60-dan çox aparıcı media qurumu təmsil olunacaq.

SƏHİFƏ 2-də



## BTC-NİN "SÜKANI" SOCAR-A VERİLDİ

Azərbaycanın əsas neft ixrac marşrutunda 20 ildən sonra idarəetmə dəyişdi. BTC üzrə operatorluğun SOCAR-a keçməsi enerji diplomatiyası və regional təsir baxımından strateji dönüş kimi qiymətləndirilir.

SƏHİFƏ 6-da



## PSİXOLOQLARIN ƏL YANDIRAN QƏBUL QİYMƏTLƏRİ

Seans qiymətləri mütəxəssisin təcrübəsinə, ixtisaslaşma sahəsinə, qəbulun fərdi və ya onlayn keçirilməsinə görə fərqlənir. Seansların qiymətləri 80 manatdan başlayaraq 500 manata qədər yüksəlir.

SƏHİFƏ 14-də

## AZƏRBAYCAN QLOBAL NİZAMIN APARICI ÜZVÜNƏ ÇEVRİLİR





# ARTAN NÜFUZUN DİPLOMATİK İFADƏSİ

Bu gün Azərbaycan dünyanın ən güclü dövləti tərəfindən bərabərhüquqlu tərəfdaş kimi qəbul edilir, ikitərəfli münasibətlər isə qarşılıqlı hörmət və etimada əsaslanır. Rəsmi Bakının məlum siyasəti tək ABŞ ilə münasibətlərin səviyyəsi ilə ölçülmür.

### G20-YƏ DƏVƏT OLUNANLAR SIRASINDA

Azərbaycan 2026-cı il dekabrın 14–15-də ABŞ-nin Mayami şəhərində keçiriləcək nüfuzlu G20 sammitinə dəvət olunan ölkələr sırasında yer alıb. Bu barədə G20 üzrə ABŞ sədrliyinin rəsmi saytında məlumat yerləşdirilib.

### QLOBAL İQTİSADİ GÜNDƏM PLATFORMASI

G20 sammiti dünyanın aparıcı iqtisadiyyatlarının və dəvət olunmuş ölkələrin iştirakı ilə qlobal iqtisadi gündəmin, beynəlxalq əməkdaşlığın və strateji çağırışların müzakirə edildiyi əsas platformalardan biri hesab olunur.

SƏHİFƏ 3-də

"Uşaqların əylənməsi üçün alternativ yaratmalıyıq"

## "HÜQUQLARLA YANAŞI, VƏZİFƏLƏRİ DƏ YADA SALMALIYIQ"



Milli Məclisin qəbul etdiyi sosial şəbəkələrdən istifadə ilə bağlı qanunvericilikdə nəzərdə tutulan dəyişikliklər haqqında "Ümidli Gələcək" Sosial Təşəbbüslər İctimai Birliyinin sədri Kəmalə Aşumova ilə söhbət.

"Bu qanun nə uşağın azadlığını əlindən alır, nə də şəxsi sərhədlərinə manea törədir. Sadəcə, 16 yaşa qədər uşaqlar istifadə etdikləri sosial platformalarda qeydiyyatı mütləq valideynlərinin iştirakı ilə həyata keçirməlidirlər".

SƏHİFƏ 8-9-da



## BAKIDAN BAŞLAYAN YÜZ İLLİK YOL

Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş "Türk Dünyası Həftəsi" türk dövlətlərini yenidən bir araya gətirdi. Tədbirə 20 ölkədən rəsmilər, türk əməkdaşlıq təşkilatlarının rəhbərləri və nümayəndələri qatıldı.

SƏHİFƏ 4-də



## MƏSAFƏDƏN KREDİTLƏR DAHA TƏHLÜKƏSİZ OLACAQ

Vətəndaşlar öz adlarına məsafədən kredit rəsmiləşdirilməsini qadağan edə biləcəklər. Yeni mexanizm vətəndaşların xəbəri olmadan kredit götürülməsi hallarını minimuma endirməyi hədəfləyir.

SƏHİFƏ 12-də



## TƏLƏB ÇOX, YER İSƏ YENƏ DƏ AZ

Bağçalara elektron qəbul başlayıb. Bu il də valideynləri ən çox düşündürən məsələlər dövlət bağçalarında yer təminatı, yeni müəssisələrin istifadəyə verilməsi və özəl bağçalarda tətbiq olunan qiymətlərdir.

SƏHİFƏ 11-də



Bakı-Tbilisi qatarında bilet qıtlığı

SƏHİFƏ 7-də



Moldovada yeni qarşıdurma xətti

SƏHİFƏ 5-də



Balıq məhsulları bahalaşacaq

SƏHİFƏ 13-də



Giriş iki manat, çay 20 manat...

SƏHİFƏ 15-də



Dünya çempionu ola bilmədi

SƏHİFƏ 16-da



## 9,2 milyon vətəndaşa xidmət göstərilib

Son 14 ildə "ASAN xidmət" mərkəzlərində 9,2 milyon vətəndaşa xidmət göstərilib. "Report" xəbər verir ki, bunu Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev "ASAN xidmət"ə 100 milyonuncu vətəndaş müraciətinin qeydə alınması ilə bağlı tədbirdə jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, 2012-ci ildən bu günə ümumilikdə 100 milyon xidmət göstərilib: "Hər ötən il həm xidmətlərin sayı, həm də xidmətlərdən yararlanan vətəndaşların sayı artır. Azərbaycanın əhalisi 10 milyondan bir qədər çox olsa da, artıq 9 milyon 200 min vətəndaş "ASAN xidmət"dən istifadə edib. Bu isə o deməkdir ki, demək olar, hər bir vətəndaş "ASAN xidmət"ə orta hesabla 9–10 dəfə müraciət edib".

Ü.Mehdiyev bildirib ki, bu gün "ASAN xidmət"də vətəndaş məmnuniyyəti 99,9 faiz təşkil edir: "ASAN xidmət"də çalışan əməkdaşların şəffaflıq, sıfır bürokratiya, operativlik və hər kəs üçün əlçatan xidmət prinsiplərinə sadiqliyi sayəsində bu yüksək vətəndaş məmnuniyyətinə nail olunub. Bu gün də şahidi olduğumuz kimi, 100 milyonuncu xidmət göstərilən vətəndaş cəmi 10 günlük körpədir".



## Ölkədə epidemioloji vəziyyət sabitdir

Azərbaycanda epidemik parotit (qulaqdibi) üzrə epidemioloji vəziyyət sabitdir. "Report" xəbər verir ki, bu barədə Səhiyyə Nazirliyi məlumat yayıb.

Bildirilib ki, son günlər sosial şəbəkələrdə Bakı şəhərində epidemik parotit (qulaqdibi) xəstəliyinin geniş yayıldığı ilə bağlı paylaşımlar olunur. Həmin məlumatlar mövcud epidemioloji vəziyyəti əks etdirmir. Hazırda ölkədə epidemik parotit üzrə epidemioloji vəziyyət sabitdir. Qeydiyyata alınan yoluxma halları ayrı-ayrı sporadik hallardan ibarətdir, hər hansı epidemiya və ya kütləvi yayılma qeydə alınmayıb. "Mövcud vəziyyət aidiyyəti tibb müəssisələri tərəfindən daim epidemioloji nəzarətdə saxlanılır, zəruri profilaktik və əks-epidemik tədbirlər ardıcıl şəkildə həyata keçirilir. Epidemik parotit daha çox peyvənd olunmamış və ya natamam peyvənd olunmuş şəxslər arasında müşahidə edilir. Xəstəlik əsasən hava-damcı yolu ilə – öskürmə, asqırma və yaxın təmas zamanı ötürülür. İnkubasiya dövrü adətən 11–23 gün davam edir. Xəstəliyin əsas əlamətləri bədən hərarətinin yüksəlməsi, qulaqətrafı tüpürcək vəzilərində şişkinlik və ağrı, çeynəmə və udma zamanı narahatlıq, ümumi halsızlıq, baş ağrısı və iştahanın azalmasıdır.

Əksər hallarda epidemik parotit yüngül keçir və tam sağalma ilə nəticələnir. Bununla belə, peyvənd olunmamış yeniyetmələrdə və böyüklərdə nadir hallarda müəyyən ağırlaşmaların inkişaf etməsi mümkündür. Bu səbəbdən xəstəliyin qarşısının alınmasında vaxtında peyvəndlənmə xüsusi əhəmiyyət daşıyır", - məlumatda qeyd olunub.

# ŞUŞADA IV QLOBAL MEDİA FORUMU KEÇİRİLƏCƏK




İndiyədək keçirilən forumlar ərzində 81 ölkədən 600-ə yaxın nüfuzlu media nümayəndəsi, ekspert və rəsmi şəxs bir araya gəlib.

İyulun 13-14-də "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusunda IV Şuşa Qlobal Media Forumu keçiriləcək. Medianın İnkişafı Agentliyindən bildirilib ki, artıq nüfuzlu beynəlxalq platformalardan birinə çevrilən Şuşa Qlobal Media Forumu bu il "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusuna həsr olunacaq.

### 54 ÖLKƏDƏN 160-A YAXIN MEDİA NÜMAYƏNDƏSİ

Dünyanın 54 ölkəsindən 160-a yaxın media nümayəndəsi, ekspert və rəsmi şəxsin iştirak edəcəyi forumda 30-a yaxın beynəlxalq informasiya agentliyi və 60-dan çox aparıcı media qurumu təmsil olunacaq. Həmçinin 10-a yaxın beynəlxalq təşkilat və şirkətin nümayəndələri də tədbirə qatılacaqlar.

Forum çərçivəsində medianın sülh quruculuğundakı rolu, sərhədlərarası media dialoqu və ictimai etimadın bərpası, dezinformasiya ilə mübarizədə beynəlxalq əməkdaşlıq, rəqəmsal platformalarda təhlükəsiz informasiya mühitinin yaradılması, süni intellekt dövründə media etikası və məsuliyyətli jurnalistika kimi aktual mövzular ətrafında panel müzakirələri, təkbətək görüşlər və interaktiv sessiyalar təşkil ediləcək.

Tədbir mediada məsuliyyətli davranışın vacibliyini önə çəkərək, cəmiyyətlər arasında sarsılmış etimadın bərpası, rəqəmsal həmrəyliyin gücləndirilməsi və sülhün təmin olunması istiqamətində praktiki addımların atılmasına töhfə verməyi hədəfləyir.

### APARICI BEYNƏLXALQ PLATFORMALARDAN BİRİ

Qeyd edək ki, 2022-ci ildə ilk dəfə "Mediada qlobal trendlər, yeni çağırışlar" mövzusunda Beynəlxalq Media Forumu keçirilib. Sonrakı illərdə bu təşəbbüs Şuşa Qlobal Media Forumu formatında davam etdirilib. Belə ki, 2023-cü ildə keçirilən I Şuşa Qlobal Media Forumu "4-cü Sənaye İnqilabı dövründə Yeni Media", 2024-cü ildə baş tutan II Şuşa Qlobal Media Forumu "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə", 2025-ci ildəki III Şuşa Qlobal Media Forumu isə "Rəqəmsal Keçidlər: Süni İntellekt Dövründə İnformasiya və Media Dayanıqlılığının Gücləndirilməsi" mövzularına həsr olunub.



İndiyədək keçirilən forumlar ərzində 81 ölkədən 600-ə yaxın nüfuzlu media nümayəndəsi, ekspert və rəsmi şəxsi bir araya gətirən Şuşa Qlobal Media Forumu qlobal media gündəliyinin müzakirə olunduğu aparıcı beynəlxalq platformalardan biri kimi öz mövqeyini möhkəmləndirib.

### DİQQƏT MƏRKƏZİNDƏ OLACAQ ƏSAS MƏSƏLƏ

Forumun əvvəlki illərdə keçirilən sessiyalarında rəqəmsal transformasiya, süni intellekt texnologiyalarının media sektoruna və xəbər istehsalı proseslərinə təsiri, bu texnologiyaların yaratdığı imkanlar və çağırışlar, mediada innovasiyalar, dezinformasiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığın və həmrəyliyin gücləndirilməsi kimi məsələlər geniş müzakirə olunub. Son illərdə qlobal informasiya mühitində baş verən sürətli dəyişikliklər həmin mövzuların aktuallığını daha da artırıb. Bu baxımdan, əvvəlki forumlarda əsası qoyulan müzakirələrin davamı olaraq, sözügedən istiqamətlər IV Şuşa Qlobal Media Forumunun da əsas diqqət mərkəzində olacaq və müasir çağırışlar kontekstində ətraflı müzakirə ediləcək.




# ARTAN NÜFUZUN DİPLOMATİK İFADƏSİ

**Bu gün Azərbaycan dünyanın ən güclü dövləti tərəfindən bərabərhüquqlu tərəfdaş kimi qəbul edilir, ikitərəfli münasibətlər isə qarşılıqlı hörmət və etimada əsaslanır. Rəsmi Bakının məlum siyasəti tək ABŞ ilə münasibətlərin səviyyəsi ilə ölçülmür.**



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Son illərdə Azərbaycanın artan beynəlxalq nüfuzu fonunda rəsmi Bakının regional aktor olaraq proseslərdə daha aktiv rol aldığının şahidi oluruq. Bu prosesin məntiqi nəticəsi kimi Azərbaycanın ali rəhbərliyi dünyanın aparıcı beynəlxalq tədbirlərinə və forumlara, zirvə görüşlərinə xüsusi qonaq qismində dəvət edilir.

### G20 SAMMİTİNƏ DƏVƏT OLUNAN ÖLKƏLƏR SIRASINDA

Belə ki, Azərbaycan 2026-cı il dekabrın 14–15-də ABŞ-nin Mayami şəhərində keçiriləcək G20 sammitinə dəvət olunan ölkələr sırasında yer alıb. Bu barədə G20 üzrə ABŞ sədrliyinin rəsmi saytında məlumat yerləşdirilib. Məlumata əsasən, sammitə dəvət edilmiş ölkələr sırasında Azərbaycanla yanaşı, Qazaxıstan, Özbəkistan, Finlandiya, İrlandiya, Niderland, Norveç, Qətər, Sinqapur, İspaniya və Birləşmiş Ərəb Əmirlikləri də var. Qeyd edək ki, G20 sammiti dünyanın aparıcı iqtisadiyyatlarının və dəvət olunmuş tərəfdaş ölkələrin iştirakı ilə qlobal iqtisadi gündəmin, beynəlxalq əməkdaşlığın və strateji çağırışların müzakirə edildiyi əsas platformalardan biri hesab olunur. Xatırladaq ki, 2025-ci ildə G20 sammiti Cənubi Afrika Respublikasının Yohannesburq şəhərində keçirilib.

### MƏRKƏZİ ASİYA-QƏRB VEKTORUNDA ƏSAS SÖZ SAHİBİ

Təbii ki, G20 görüşünə budəfəki dəvətin əsas təşəbbüskarı ABŞ Prezidenti Donald Trampdır. Son zamanlar Bakı-Vaşinqton münasibətlərindəki yüksəliş özünün pik dövrünü yaşayır. ABŞ-nin Cənubi Qafqazdakı sülh prosesində aktiv rol alması, bütün dünyanın böyük maraq və diqqətlə izlədiyi Zəngəzur dəhlizinin açılmasında fəal iştirakı dövlətlərarası münasibətlərdə də yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilir. ABŞ Prezidenti dəfələrlə Azərbaycanla strateji əməkdaşlığa böyük önəm verdiyini, Prezident İlham Əliyevlə şəxsi münasibətlərini yüksək dəyərləndirdiyini bəyan edib. Bu baxımdan, Vaşinqtonun Avrasiyanın mərkəzində maraqlarının müdafiəsinə hesablanmış strategiyada Azərbaycan açar rolunu oynayır. Mərkəzi Asiya-Qərb vektorunda əsas söz sahiblərindən biri məhz rəsmi Bakıdır. Ağ ev rəhbərliyi ölkəmizin artan nüfuzu, geosiyasi və geoiqtisadi imkanları, həmçinin Bakının praqmatik siyasətini yüksək dəyərləndirməklə yanaşı, prosesdə ölkəmizi bərabərhüquqlu tərəfdaş və müttəfiq kimi də qəbul edir.

### BAKI MÜNASİBƏTLƏRİN İNKİŞAFINDAN MƏMNUNDUR

Bu vurğunu Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Trampa ünvanladığı təbrik məktubunda da görmək mümkündür. Amerika Birləşmiş Ştatlarının müstəqilliyinin 250-ci ildönümü münasibətilə ünvanlanan təbrik məktubunda Prezident İlham Əliyev bildirib ki, ötən dövr ərzində şanlı inkişaf yolu keçmiş Birləşmiş Ştatlar bu gün qlobal arenada hər bir cəhətdən güclü və qüdrətli dövlətdir. "Hazırda Sizin əzmlə və qətiyyətlə həyata keçirdiyiniz siyasət sayəsində ölkənizin əldə etdiyi möhtəşəm nailiyyətlərin sayı artır, beynəlxalq aləmdə liderliyi, etibarı və yüksək nüfuzu daha da möhkəmlənir", - dövlət başçısı qeyd edib. Prezident bildirib ki, son dövrdə Azərbaycan-ABŞ münasibətlərinin yüksələn xətlə və uğurla inkişaf etməsi məmnunluq doğurur: "Biz iki ölkə arasında təşəkkül tapmış strateji tərəfdaşlıq münasibətlərini yüksək qiymətləndirir, dövlətlərarası əlaqələrimizin güclənməsinə daim verdiyiniz böyük önəmə və dəstəyə görə Sizə minnətdarlığımızı bildiririk. Fevral ayında imzalanan və münasibətlərimizi keyfiyyətcə yeni mərhələyə qaldıran Strateji Tərəfdaşlıq Xartiyasının iqtisadiyyat, enerji, bağlantılar, təhlükəsizlik kimi ənənəvi sahələrlə yanaşı, rəqəmsal transformasiya, süni intellekt və digər mühüm istiqamətlər üzrə tərəfdaşlığın inkişaf etdirilməsinə təkan verəcəyinə əminliyimi ifadə edirəm. Biz Sizin Cənubi Qafqazda sülh gündəliyinin təşviqi və dayanıqlı inkişafın təmin edilməsi istiqamətində qətiyyətli səylərinizi də son dərəcə yüksək qiymətləndiririk".



## MEQALAYİHƏLƏRİN REALLAŞDIRILMASININ TƏKANVERİCİ QÜVVƏSİ

Hər bir dövlətin beynəlxalq nüfuzu həm də xarici tərəfdaşlarının ona verdiyi dəyər və ikitərəfli münasibətlərinin əhatə dairəsi ilə ölçülür. Bu gün Azərbaycan dünyanın ən güclü dövləti tərəfindən bərabərhüquqlu tərəfdaş kimi qəbul edilir, ikitərəfli münasibətlər isə qarşılıqlı hörmət və etimada əsaslanır. Rəsmi Bakının məlum siyasəti tək ABŞ ilə münasibətlərin səviyyəsi ilə ölçülmür. Eyni zamanda, Rusiya, Çin, Avropa İttifaqı kimi aparıcı güc mərkəzləri ilə qurulan münasibətlərdə də eyni prinsip və xətt əsas götürülür. Regional səviyyədə isə Azərbaycanın bütün qonşuları, Prezident İlham Əliyevin də vurğuladığı kimi, hətta qonşularının qonşuları ilə də çox yaxşı münasibətləri var. Məhz bu amillər ölkəmizi artan beynəlxalq kataklizmlər, gərginliklər və müharibələr fonunda enerji təhlükəsizliyi, logistika və tranzit sahələrindən tutmuş bir çox strateji istiqamətlər üzrə etibarlı tərəfdaş kimi qəbul edilməsini şərtləndirir. Prezident İlham Əliyevin milli maraqlarımıza əsaslanan praqmatik siyasəti Azərbaycanın əsas oyunçu olduğu sözügedən sahələr üzrə beynəlxalq əhəmiyyətli meqalayihələrin reallaşdırılmasının təkanverici qüvvəsinə çevirib.

### QLOBAL NİZAMIN ƏSAS APARICI ÜZVLƏRİNDƏN BİRİ

Qısa müddət çərçivəsində ABŞ-nin vitse-prezidenti Cey. Di. Vensin, Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayenin, Mərkəzi Asiya liderləri və digərlərinin Azərbaycana ardıcıl səfərləri yenidən qurulan dünya nizamında ölkəmizin əsas istiqamətverici aktorlardan biri olduğunu bir daha təsdiqləyir. Dünyanın ən güclü dövlətində təşkil olunacaq G20 sammitinə Azərbaycanın dəvət edilməsi rəsmi Bakının qlobal nizamın əsas aparıcı üzvlərindən biri olduğunu göstərir.




# BAKIDAN BAŞLAYAN YÜZ İLLİK YOL

Birinci Türkoloji Qurultaydan 100 il keçməsinə baxmayaraq, əsası həmin dövrdə qoyulan birlik, həmrəylik və əməkdaşlıq ideyaları bu gün reallığa çevrilməkdədir. Bu mirasın əsas daşıyıcılarından olan Azərbaycan türk dünyasını özünün ailəsi olaraq qəbul edir.

**F.ABASOĞLU**

Azərbaycan türk dünyasının aparıcı üzvlərindən biri olaraq, türkdilli dövlətlər arasında yalnız siyasi, iqtisadi, hərbi münasibətlərin deyil, mədəni, elmi və humanitar əlaqələrin dərinləşdirilməsinə də öz töhfəsini verir. Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş "Türk Dünyası Həftəsi" də türk dövlətlərini yenidən bir araya gətirdi. Tədbirə türk respublikaları daxil olmaqla 20 ölkədən rəsmilər, türk əməkdaşlıq təşkilatlarının rəhbərləri və nümayəndələri, eləcə də 126 türkoloq-alim qatıldı. "Türk Dünyası Həftəsi" çərçivəsində ölkəmizin müxtəlif bölgələrində ən aktual mövzular ətrafında geniş müzakirələrin aparıldığı, türk dünyasının birliyinə töhfə verə biləcək təklif və ideyaların ortaya qoyulduğu silsilə konfranslar təşkil edildi.

### "TÜRK DÜNYASI" ANLAYIŞININ DOĞULDUĞU QURULTAY

Xatırladaq ki, tədbir Prezident İlham Əliyevin "Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında" 22 oktyabr 2025-ci il tarixli Sərəncamına uyğun olaraq gerçəkləşib. Tarixən Azərbaycan Türk dünyasının birliyi, həmrəyliyi üçün mühüm rol oynayıb. Yüz il əvvəl Bakıda təşkil olunan Türkoloji Qurultay da məhz bu ideyaların gerçəkləşməsi, yeni baxışların, ideyaların təmərküzləşməsi istiqamətində atılan ən mühüm addımlardan biri hesab olunurdu. Təsadüfi deyil ki, "Türk Dünyası" anlayışı ilk dəfə məhz yüz il əvvəl Bakıda təşkil olunan Birinci Türkoloji Qurultayda meydana çıxıb.

Azərbaycan üçün bu tədbiri əhəmiyyətli edən digər mühüm amil onun Bakının Türk Dövlətləri Təşkilatına sədrlik etdiyi bir məqamda təşkilidir. Xatırladaq ki, Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsinə dair təklif ötən ilin oktyabrında Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü zamanı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən irəli sürülüb.



## PREZİDENT İLHAM ƏLİYEVİN TƏBRİK MÜRACİƏTİ

"Türk Dünyası Həftəsi"nin, Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin təşkilinə bütün türk dövlətləri böyük diqqət və həssaslıqla yanaşıblar. Bu, ölkə başçılarının yubiley münasibəti ilə ünvanladıqları təbrik məktublarında da açıq şəkildə görünür.

Prezident İlham Əliyev təbrik məktubunda vurğulayıb ki, Azərbaycan türk dövlətləri arasında əməkdaşlığın gücləndirilməsi istiqamətində aktiv fəaliyyəti ilə yadda qalıb: "Türk dünyası ailəsi böyük bir sivilizasiya yaratmış əcdadlarımızın şəninə yaraşan tərzdə əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən biri olmaq yolundadır. Biz bu ailənin möhkəmliyi və sarsılmazlığı naminə var qüvvəmizi bundan sonra da əsirgəməyəcəyik". Prezident qeyd edib ki, 1926-cı ildə Birinci Türkoloji Qurultayın məhz Bakıda keçirildiyi kimi, onun 100 illiyinə həsr olunmuş tədbirin də Azərbaycan paytaxtında təşkil olunması təsadüfi deyil. Onun sözlərinə görə, türk dünyasının birlik və həmrəyliyinin ən güclü müdafiəçilərindən olan Azərbaycan bu gün də türk dövlətlərinin ortaq məqsədlərinin həyata keçirilməsinə mühüm töhfə verir.

## TARİXİ DÖNÜŞ NÖQTƏSİ

Türk dünyası çərçivəsində sarsılmaz bağların qurulmasında Azərbaycanın mühüm rol oynadığını digər türkdilli ölkələrin rəhbərləri də xüsusi qeyd edirlər. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev "Türk Dünyası Həftəsi"nin iştirakçılarına ünvanladığı müraciətdə qeyd edib ki, Azərbaycanın türk dünyasında tutduğu yer xüsusidir. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev müraciətində bildirib ki, Birinci Türkoloji Qurultay türk xalqlarının elmi, mədəni və ictimai həyatının inkişafında yeni bir dövrün başlanğıcını qoyan tarixi hadisə kimi yadda qalıb. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan vurğulayıb ki, qurultayın miras qoyduğu idealları yaşatmaq, gücləndirmək və gələcək nəsillərə ötürmək bütün türk dünyasının ortaq məsuliyyətidir. Qırğızıstan Prezidenti Sadır Japarov da Birinci Türkoloji Qurultayın 1926-cı ildə Bakıda keçirilməsinin türk xalqlarının intellektual, mədəni və siyasi birliyinin formalaşmasında tarixi dönüş nöqtəsi olduğunu bildirib.

### XANKƏNDİ BƏYANNAMƏSİ

Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş "Türk Dünyası Həftəsi" çərçivəsində tədbir iştirakçıları elm, təhsil, dil, mədəniyyət və ortaq tarixi irsin qorunması sahələrində türk dövlətləri arasında əməkdaşlığın gələcək inkişaf istiqamətlərini özündə əks etdirən Xankəndi Bəyannaməsini hazırlayaraq yekdilliklə qəbul ediblər. Bəyannamədə Azərbaycan Prezidenti İlham Əliyevə yubiley tədbirlərinin keçirilməsi təşəbbüsünə, müvafiq Sərəncamın imzalanmasına, türk dünyası əməkdaşlığının inkişafına göstərdiyi daimi diqqətə, eləcə də tədbirlərin Bakı və Xankəndi şəhərlərində yüksək səviyyədə təşkilinə görə dərin minnətdarlıq ifadə olunub. Sənəddə, həmçinin "Türk Dünyası Həftəsi"nin iştirakçılarına ünvanladıqları təbrik müraciətlərinə görə türk dövlətlərinin başçılarına təşəkkür bildirilib.

### MİRASIN LAYİQLİ DAŞIYICISI

Birinci Türkoloji Qurultaydan 100 il keçməsinə baxmayaraq, əsası həmin dövrdə qoyulan birlik, həmrəylik və əməkdaşlıq ideyaları bu gün Türk Dövlətləri Təşkilatı və ikitərəfli münasibətlər çərçivəsində reallığa çevrilməkdədir. Bu mirasın əsas daşıyıcılarından olan Azərbaycan türk dünyasını özünün ailəsi olaraq qəbul edir. Atılan addımlar, həyata keçirilən siyasət də məhz bu prinsip üzərində qurulur. "Türk Dünyası Həftəsi"nin təşkili ilə Azərbaycan həm ortaya qoyduğu yanaşmalar, həm də həyata keçirdiyi siyasətlə türk dünyasının mirasının əsas və layiqli davamçılarından biri olduğunu bir daha göstərmiş oldu.

# MOLDOVADA YENİ QARŞIDURMA XƏTTİ

ABŞ Moldovanın Ukrayna sərhədindən cəmi 100 km məsafədə yerləşən hərbi aerodromunu almaq istəyini açıqlayıb. Bu xəbər separatçı Dnestryanı bölgə və onun himayə etdiyi Rusiya tərəfindən narahatlıqla qarşılanıb.






AZƏR NURİYEV

Birləşmiş Ştatlar postsovet məkanında təsir dairəsini genişləndirməkdə davam edir. Ağ Ev indi də Moldovada aktiv fəaliyyətə keçib. Xeyli müddətdir Moldovanın postsovet məkanından tamamilə uzaqlaşdırılmasına çalışılır. Ruspərəst qüvvələrin seçkilərdə məğlubiyyətindən sonra Qərb strukturları Kişineuya yardımlarını artırıblar. Moldovanın Avropa İttifaqına üzvlüyü prosesi də sürətləndirilib. İş o yerə gəlib çatıb ki, ABŞ Moldovanın hərbi aerodromunu almaq istəyini açıqlayıb. Moldovanın infrastruktur və regional inkişaf naziri Vladimir Bolea bildirib ki, ABŞ-nin bir neçə şirkəti ölkənin şimalında yerləşən Markuleşti hərbi aerodromuna maraq göstərir. Kişineuda hesab edirlər ki, bu obyekt gələcəkdə regional yükdaşıma və logistika mərkəzinə çevrilə bilər.

### DNESTRYANI BÖLGƏ VƏ RUSİYANIN İDDİALARI

Prezident Maya Sandunun Avropa tərəfdaşları ilə Rusiya qoşunlarının regiondan çıxarılması məsələsini müzakirə etməsi və aeroportla bağlı xəbər separatçı Dnestryanı bölgə və onun himayə etdiyi Rusiyada narahatlıqla qarşılanıb. Separatçı Tiraspolda iddia edirlər ki, 1992-ci ildə onları bombalayan təyyarələr məhz bu aerodromdan havaya qalxıb. Markuleşti aerodromuna NATO ölkələri təyyarələrinin enməsi barədə məlumatlar uzun illərdir məlumdur. Son vaxtlar bura Ukrayna Silahlı Qüvvələrinə məxsus təyyarələrin də enməsi ilə bağlı xəbərlər yayılıb. Bu isə Moldovanın münaqişəyə cəlb olunmasını istəməyən vətəndaşlar arasında narahatlıq yaradıb. İddialara görə, həmin təyyarələr Ukraynadan müxtəlif yüklər daşıyır. Bunu Rusiyanın Moldovadakı səfiri Oleq Ozerov iddia edib. Bundan əvvəl, 2025-ci ilin fevralında Rusiyanın Vyanada hərbi təhlükəsizlik və silahlara nəzarət üzrə danışıqlardakı nümayəndə heyətinin rəhbəri vəzifəsini icra edən Yuliya Jdanova Moldovanın Ukraynadan silah daşınmasının əsas tranzit məntəqələrindən biri olduğunu bəyan etmişdi.

## SƏRHƏDİN 100 KİLOMETRLİYİNDƏ YERLƏŞƏN AEROPORT

Moldova hakimiyyəti isə bildirir ki, Markuleşti Beynəlxalq Hava Limanı yalnız investisiyaların cəlb edilməsi və regional nəqliyyat-logistika mərkəzinin yaradılması məqsədi daşıyır. Lakin aerodromun hərbi keçmişi və texniki imkanları onun hərbi-strateji məqsədlərlə istifadə oluna biləcəyi barədə sualları artırır. “Markuleştidə fəaliyyət göstərən hava limanı var. Burada hər il 230–250 reys həyata keçirilir. Hər ay ABŞ, Yunanıstan və Macarıstandan olan şirkətlər bu aerodromla maraqlandıqlarını bildirirlər”, – deyə Vladimir Bolea da bildirib. Nazirin sözlərinə görə, aerodromun əsas üstünlüklərindən biri onun Ukrayna sərhədindən təxminən 100 kilometr, Rumıniya sərhədindən isə bir qədər artıq məsafədə yerləşməsidir. “Bu, çox əlverişli mövqedə yerləşən aerodromdur. Buraya gedən dördzolaqlı avtomobil yolu var. Həmin yol yenidən qurulacaq. Dəmir yolu bağlantısı da mövcuddur. Söhbət tam funksional logistika mərkəzindən gedir”, – deyə Bolea bildirib.



Vladimir Bolea

### 2004-CÜ İLƏ QƏDƏR OBYEKT HƏRBİ AERODROM KİMİ İSTİFADƏ OLUNUB

Markuleşti Beynəlxalq Hava Limanı 2004-cü ilə qədər hərbi aerodrom kimi istifadə olunub. Daha sonra ona mülki hava limanı və azad iqtisadi zona statusu verilib. Burada uzunluğu 2 500 metr olan uçuş-eniş zolağı yerləşir ki, bu da iri hava gəmilərinin qəbuluna imkan verir. Məhz bu xüsusiyyət ekspertlər və ictimaiyyət arasında aerodromun gələcəkdə hərbi məqsədlərlə istifadə oluna biləcəyi barədə ehtimalları artırır.

Hazırda burada hərbi baza yaradılması və ya NATO qüvvələrinin daimi yerləşdirilməsi barədə rəsmi qərar qəbul edilməyib. Moldova Konstitusiyaya əsasən neytral dövlətdir. Bununla belə, ölkə müdafiə infrastrukturunun Qərb standartlarına uyğunlaşdırılması istiqamətində NATO ilə əməkdaşlıq edir.



Oleq Ozerov

## HƏRBİ TƏYYARƏLƏR ÜÇÜN MOBİL TEXNİKİ XİDMƏT STANSİYASI

Rəsmi şəxslər də ölkə ərazisində NATO hərbi aviasiyasının yerləşdiriləcəyi barədə məlumatları dəfələrlə təkzib ediblər. Bununla belə, aerodromun texniki imkanlarının buna şərait yaratdığı qeyd olunur. Təxminən bir il əvvəl Moldova parlamentinin “Qələbə” müxalifət blokundan olan deputatı Vasili Bolea Kişineunun NATO infrastrukturunun ölkədə yerləşdirilməsinə razılıq verdiyini iddia etmişdi. “Yaxın vaxtlarda Markuleşti hava limanının Avropa İttifaqı və ya NATO təyyarələrinin yerləşdirilməsi üçün istifadə oluna biləcəyini istisna etmirəm. Ukrayna Qərb ölkələrindən F-16 qırıcılarını aldıqdan sonra onların “neytral” Moldovada yerləşdirilməsi və texniki xidmətinin təşkili ilə bağlı müzakirələr başlanmışdı. Həmin dövrdə Rumıniyanın Moldovaya hərbi təyyarələr üçün mobil texniki xidmət stansiyası göndərərək sonradan onların Markuleşti aerodromunda yerləşdirilməsinin planlaşdırıldığı barədə məlumatlar yayılmışdı”, - deyə o bildirib.

Göründüyü kimi, Moldovada müxtəlif qütblərin geosiyasi qarşıdurması kəskinləşir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# BTC-NİN "SÜKANI" SOCAR-A VERİLDİ

Azərbaycanın əsas neft ixrac marşrutunda 20 ildən sonra idarəetmə dəyişdi. BTC üzrə operatorluğun SOCAR-a keçməsi enerji diplomatiyası və regional təsir baxımından strateji dönüş kimi qiymətləndirilir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

İyirmi il ərzində Azərbaycanın əsas neft ixrac marşrutu olan Bakı–Tbilisi–Ceyhan (BTC) boru kəmərində yeni mərhələ başlayıb. İyulun 1-dən BTC-nin operatorluğu rəsmi olaraq bp-dən SOCAR-ın törəmə müəssisəsi olan "SOCAR Midstream Operations" MMC-yə keçib. Bu dəyişiklik mülkiyyətin deyil, idarəetmənin ötürülməsi olsa da, onun Azərbaycanın enerji sektoruna, iqtisadiyyatına və regional mövqeyinə təsiri maraq doğurur. Bəs operatorluğun SOCAR-a keçməsi faktiki olaraq nəyi dəyişəcək, bu addım Azərbaycana hansı üstünlükləri qazandıracaq? Bunun geosiyasi və iqtisadi əhəmiyyəti nədən ibarətdir?

### "BTC KƏMƏRİ XÜSUSİ STRATEJİ ƏHƏMİYYƏT KƏSB EDİR"

Enerji məsələləri üzrə ekspert Zəfər Vəliyevin sözlərinə görə, ötürülmə prosesi Səngəçal terminalının ərazisində yerləşən obyektlər istisna olmaqla, Azərbaycan, Gürcüstan və Türkiyə ərazisindən keçən bütün BTC obyektlərini və fəaliyyətlərini, eləcə də BTC və Cənubi Qafqaz Boru Kəmərinə (CQBK) aid ümumi fəaliyyətləri əhatə edir: "BTC və CQBK kimi strateji ixrac xətlərinin operatorluğunun SOCAR-a ötürülməsi şirkətin illər ərzində formalaşdırdığı güclü milli kadr potensialından və enerji infrastrukturunun idarə edilməsində topladığı zəngin təcrübədən irəli gəlir. bp-nin boru kəməri infrastrukturunun texniki operatorluğundan geri çəkilməsi layihələrin mövcud kommersiya strukturunda heç bir dəyişiklik yaratmır. Təchizat zəncirinin sabitliyi və enerji axınlarının təhlükəsizliyi baxımından BTC kəməri xüsusi strateji əhəmiyyət kəsb edir. Fəaliyyətdə olduğu 20 il ərzində qlobal bazarlara etibarlı ixrac xətti kimi enerji təhlükəsizliyini gücləndirən BTC, həm də yüngül və ağır neft balansının qorunması, ehtiyatların formalaşması və emal zavodlarının öz konfiqurasiyalarına uyğun xammalla təmin edilməsi kimi mühüm funksiyaları yerinə yetirib".

Z.Vəliyevin fikrincə, müharibə fonunda Rusiya enerji daşıyıcılarına tətbiq edilən beynəlxalq məhdudiyyətlər Xəzər regionunun karbohidrogen ehtiyatlarına və Azərbaycanın ixrac imkanlarına diqqəti xeyli artırıb. Bu baxımdan, qarşıdakı illərdə də Azərbaycanın ixrac infrastrukturu, xüsusilə BTC Qərb bazarları üçün həyati əhəmiyyət kəsb edən geosiyasi aktiv kimi öz cəlbediciliyini qoruyacaq: "Eyni zamanda, kəmər Xəzəryanı ölkələrin karbohidrogen ehtiyatlarının Aralıq dənizi bazarlarına çatdırılmasında ən optimal və təhlükəsiz alternativ marşrut funksiyasını uğurla davam etdirəcək".



## "AZƏRBAYCAN REGİONAL MƏRKƏZ STATUSUNU MÖHKƏMLƏNDİRİR"

İqtisadçı Elçin Əkbərov bildirdi ki, bu proses real iqtisadi dönüş nöqtəsindən çox, strateji idarəetmə dəyişikliyidir: "Burada dəyişən əsas amil mülkiyyət yox, idarəetmə funksiyasıdır. Yəni, kəmərin "sükanı" dəyişib, lakin "gəminin sahiblik sənədi" olduğu kimi qalır. Operatorluğun ötürülməsi BTC-nin Azərbaycan, Gürcüstan və Türkiyə hissələrini tam əhatə edir. Səngəçal terminalının operatorluğu (bp) və BTC Co. şirkətinin səhmdarlıq strukturu isə dəyişməz qalır. bp-nin Azərbaycandan getməsindən və ya aktivlərini satmasından söhbət getmir. Rəsmi sazişlər təsdiqləyir ki, bp "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" kimi əsas aktivlərin operatoru olaraq fəaliyyətini davam etdirir. Qeyd etmək lazımdır ki, SOCAR üçün bu keçid sıfırdan başlayan bir eksperiment deyil, şirkət 2015-ci ildən CQBK-nin kommersiya, 2021-ci ildən isə texniki operatorudur və bu keçid sınaqdan çıxmış təcrübənin məntiqi davamıdır".

E.Əkbərov düşünür ki, əgər gələcəkdə BTC vasitəsilə yalnız digər ölkələrin (məsələn, Qazaxıstan və ya Türkmənistan) nefti tranzit olunarsa, Azərbaycanın əldə edəcəyi gəlirlər birbaşa neft sektoru gəliri deyil, xidmət ixracı kimi formalaşacaq: "Bu gəlirlər kəmərin istismarı üçün ayrılan xüsusi operatorluq haqlarından, tranzit tariflərinin idarə edilməsində qəbul edilən çevik kommersiya qərarlarından və yerli podratçıların cəlb edilməsi ilə daxili bazarda pul dövriyyəsinin artmasından daxil olacaq. Makroiqtisadi baxımdan bu, xam neftin satışı deyil, nəqliyyat və logistika xidməti ixracıdır. Bu dəyişiklik Azərbaycanın regional mərkəz statusunu daha da möhkəmləndirir. Ölkə sadəcə resurs ixracatçısı kimi yox, regionun əsas enerji dəhlizini idarə edən qlobal operator kimi çıxış etməyə başlayır. SOCAR-ın Qazaxıstan və Türkmənistan neftinin BTC vasitəsilə Qərb bazarlarına daşınmasını birbaşa idarə etməsi, tranzit ölkələr və Avropa İttifaqı ilə geosiyasi danışıqlarda rəsmi Bakının mövqeyini xeyli gücləndirir. Azərbaycan iqtisadiyyatı üçün uzunmüddətli faydalar isə insan kapitalının inkişafı və beynəlxalq arenada qazanılan reputasiya ilə ölçüləcək. SOCAR-ın bu miqyaslı layihəni idarə etməsi ona gələcəkdə xaricdəki tenderlərdə operator qismində iştirak imkanı açır". İqtisadçının sözlərinə görə, operatorluq yalnız status deyil, eyni zamanda sərt məsuliyyətdir: "Qısa müddətdə nüfuz nümayişi kimi görünən bu proses, uzun müddətdə Azərbaycanı "neft hasil edən ölkə"dən "qlobal enerji dəhlizini idarə edən ölkə"yə çevirəcək".



Elçin Əkbərov



Üç əsrin qəzeti Kaspi



# BAKI-TBİLİSİ QATARINDA BİLET QITLIĞI

Bakı-Tbilisi-Bakı marşrutu üzrə tələbat çox yüksək olduğundan biletlər satışa çıxarılandan qısa müddət ərzində satılır. Ekspertlər problemin həlli üçün gündüzlər də oturaq tipli əlavə reyslərin təşkil olunmasını təklif edirlər.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

## "BU, ƏVVƏL MÜMKÜN İDİSƏ, İNDİ NİYƏ OLMASIN?"

Altı illik fasilədən sonra bərpa olunan Bakı-Tbilisi-Bakı sərnişin qatarı böyük maraqla qarşılanıb. Yüksək tələbat səbəbindən hər iki istiqamət üzrə biletlər satışa çıxarıldıqdan qısa müddət sonra tükənir və bir çox sərnişin bilet tapa bilmir. Bəzi hallarda gediş bileti əldə olunsa da, dönüş bileti tapmaq müşkülə çevrilir. Artan tələbat fonunda bu problemin həlli üçün hansı addımlar atılmalıdır?

### "BİLET SATIŞ MÜDDƏTİ BİR İLƏ QƏDƏR UZADILA BİLƏR"

Nəqliyyat eksperti Rauf Ağamirzəyev deyir ki, Bakı-Tbilisi marşrutu üzrə əsas problem tələbatın mövcud təklifdən xeyli çox olmasıdır. Onun sözlərinə görə, hazırda sərnişin daşımaları məhdud sayda vaqonla həyata keçirilir və qatarın tutumu tələbatı tam qarşılamır: "Hazırda biletlərin satış müddətinin 30 gündən 90 günə qədər artırılması nəzərdə tutulsa da, bu sistem hələ tətbiq olunmayıb. İlk növbədə bu yeniliyin qısa müddətdə tətbiqinə ehtiyac var ki, sərnişinlər səfərlərini daha əvvəlcədən planlaşdıra bilsinlər. Gələcəkdə isə bilet satış müddətinin bir ilə qədər uzadılması da nəzərdən keçirilə bilər".

R.Ağamirzəyev hesab edir ki, artan sərnişin axınını qarşılamaq üçün yalnız mövcud gecə reysi ilə kifayətlənmək düzgün yanaşma deyil: "1961-ci ildə Bakı-Tbilisi arasında gündüz oturaq tipli ekspress qatar fəaliyyət göstərib. Əgər 65 il əvvəl mümkün idisə, müasir dəmir yolu infrastrukturu və daha sürətli qatarlar şəraitində bunun yenidən tətbiqi niyə mümkün olmasın? Mövcud gecə qatarı saxlanılmaqla, Bakı-Tbilisi istiqamətində gündüz oturaq tipli əlavə reyslər də təşkil olunmalıdır. Bunun üçün 500 sərnişin tutumlu ikimərtəbəli "Stadler" qatarlarından və ya daha yüksək tutumlu qatar tərkiblərindən istifadə imkanları nəzərdən keçirilə bilər. Bu, həm sərnişin tutumunu artırar, həm də daha sürətli səfər imkanı yaradar".

### "QISAMƏSAFƏLİ MARŞRUTLARDA DƏMİR YOLUNA ÜSTÜNLÜK VERİLMƏLİDİR"

R.Ağamirzəyev hesab edir ki, Bakı-Tbilisi marşrutu üzrə yüksək tutumlu oturaq tipli qatarların istismara verilməsi təkcə dəmir yolu daşımalarının deyil, ümumilikdə nəqliyyat sisteminin səmərəliliyini artıra bilər: "Yüksək sərnişin tutumuna malik oturaq tipli qatarların gün ərzində bir neçə reys həyata keçirməsi aviareyslərlə daşınan sərnişinlərin böyük hissəsinin cəmi bir-iki qatar reysi ilə daşınmasına imkan yarada bilər. Bu, qısaməsafəli sərnişin daşımalarının bir hissəsinin dəmir yoluna yönəldilməsinə, həmin marşrutlarda istifadə olunan təyyarələrin isə digər istiqamətlərə cəlb edilməsinə şərait yaradacaq".

### ORTAQ REYSLƏR ÇIXIŞ YOLU OLA BİLƏR?

Ekspert hesab edir ki, sərnişin axınının daha səmərəli idarə olunması üçün qatarların tutumunun artırılması ilə yanaşı, marşrut üzrə reyslərin sayı yenidən nəzərdən keçirilməlidir. Onun fikrincə, marşrutun inkişafı yalnız Bakı-Tbilisi xətti ilə məhdudlaşmamalı, Batumi istiqamətinədək uzadılmalıdır: "Bakı ilə Batumi arasında gündəlik qatar reyslərinin təşkili həm turizm, həm də sərnişindaşıma baxımından səmərəli ola bilər. Eyni zamanda, mövcud gecə qatarı ilə yanaşı, daha münasib qiymətlərlə plaskart və kupe vaqonlarından ibarət əlavə gecə reysinin təşkilinə də ehtiyac var. Problemin həlli üçün qısamüddətli və uzunmüddətli tədbirlər paralel şəkildə həyata keçirilməlidir. Həmçinin qatarların sayının artırılması Gürcüstan tərəfi ilə birgə müzakirə olunaraq ortaq reyslərin təşkili yolu ilə həll edilə bilər".

Mütəxəssis vurğuladı ki, problemin həlli üçün hazırda ən optimal variantlardan biri də lizinq mexanizmindən istifadə etməklə qatarların alınmasıdır: "Yeni qatarların alınması uzunmüddətli həll variantıdır. Hazırda yeni qatar sifariş verilərsə, istismara verilməsi təxminən üç il çəkə bilər. Buna görə də yaxın perspektivdə daha real çıxış yolu kimi qatarların lizinq əsasında cəlb edilməsi və ya mövcud hərəkət tərkiblərinin yüngül təmirdən sonra xəttə buraxılması nəzərdən keçirilə bilər".

### "SATIŞA ÇIXARILAN BÜTÜN BİLETLƏR QISA MÜDDƏTƏ BİTİR"

Azərbaycan Dəmir Yolları QSC-dən (ADY) "Kaspi" qəzetinə verilən məlumata görə, Bakı-Tbilisi-Bakı marşrutu üzrə tələbat çox yüksək olduğundan biletlər satışa çıxarılandan qısa müddət ərzində satılır. Qurumdan bildirilir ki, sərnişin tələbatını qarşılamaq məqsədilə 11 iyundan etibarən qatarlara əlavə vaqon qoşulub və satışa yeni biletlər təqdim edilib: "Qarşıdakı 30 gün üçün Azərbaycandan Gürcüstana olan reyslər üzrə biletlərin böyük əksəriyyəti, Gürcüstandan Azərbaycana olan reyslər üzrə, o cümlədən əlavə satışa çıxarılan bütün biletlər də qısa müddətdə satılıb. Bildiyiniz kimi, mövcud qaydaya əsasən, əcnəbilərin ölkəmizi quru yolla tərk etməsinə məhdudiyyət yoxdur. Lakin Azərbaycana girişə yalnız təyyarə və qatarla icazə verilir ki, bu da Gürcüstandan Azərbaycana qatar reysləri üzrə biletlərə kütləvi tələbatın yaranmasına səbəb olur".

### "TBİLİSİ QATARLARINDA SƏRNİŞİN TUTUMU ARTIRILIR"

Tələbatın mövcud səviyyəsini nəzərə alaraq, reyslərin sayının artırılması məsələsinə gəldikdə isə, qurumdan bildirildi ki, 10 iyul 2026-cı il tarixindən etibarən Bakı-Tbilisi-Bakı beynəlxalq marşrutu üzrə hərəkət edən qatarların tərkibinə əlavə üç ədəd yataq tipli vaqon da (hazırda ölkədaxili marşrutda istifadə olunan standart+ sinif vaqonlar) qoşulub: "Nəticədə hər reys üzrə 104 əlavə sərnişin yeri açılıb və bir reys üzrə sərnişin yeri hazırkı 178-dən təqribən 60 faiz artaraq 282-yə çatdırılıb. Bu vaqonlarda gedişhaqqı hazırda istifadədə olan "Stadler" vaqonları üzrə biletlərin qiyməti ilə müqayisədə daha münasibdir".




Rauf Ağamirzəyev

Foto: Tabdıq Abdullayev/Global Photostock

QANUNVERİCİLİYƏ DƏYİŞİKLİKLƏR RƏQƏMSAL MÜHİTDƏ UŞAQLARIN HÜQUQLARININ MÜDAFİƏSİNİN GÜCLƏNDİRİLMƏSİNƏ TƏKAN VERƏCƏK

# “BİZ HÜQUQLARLA YANAŞI, VƏZİFƏLƏRİ DƏ YADA SALMALIYIQ”

SÖHBƏTLƏŞDİ

Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

**Kəmalə Aşumova:** “Bu qanun nə uşağın azadlığını əlindən alır, nə də şəxsi sərhədlərinə maneə törədir. Sadəcə, 16 yaşa qədər uşaqlar istifadə etdikləri sosial platformalarda qeydiyyatı mütləq valideynlərinin iştirakı ilə həyata keçirməlidirlər. Uşaq anlamalıdır ki, rəqəmsal təhlükə hər zaman ola bilər və bunu valideynə danışmalıdır”.

Rəqəmsal mühit uşaqların həyatının tərkib hissəsinə çevrildikcə, onların sosial şəbəkələrdə təhlükəsizliyinin təmin olunması da dövlətlərin qarşısında duran mühüm çağırışlardan birinə çevrilir. Milli Məclis artıq sosial şəbəkələrdən istifadə ilə bağlı qanunvericilikdə nəzərdə tutulan dəyişiklikləri üçüncü oxunuşda qəbul edib. Yeni tənzimləmələr cəmiyyətdə geniş müzakirələrə səbəb olub. Ekspertlər hesab edirlər ki, qanunun qəbul edilməsi uşaqların rəqəmsal mühitdə hüquqlarının müdafiəsinin gücləndirilməsinə, təhlükəsiz informasiya mühitinin formalaşdırılmasına, sosial şəbəkə platformalarının fəaliyyətinə dair hüquqi mexanizmlərin təkmilləşdirilməsinə və dövlət nəzarəti imkanlarının artırılmasına xidmət edəcək. “Ümidli Gələcək” Sosial Təşəbbüslər İctimai Birliyinin sədri, Uşaq Qaynar Xəttinin rəhbəri Kəmalə Aşumova ilə müsahibəmiz də bu mövzudadır:



### “UŞAQLARIN MÜDAFİƏSİNİ TƏMİN ETMƏK ÜÇÜN QANUNVERİCİ BAZA LAZIM İDİ”

**● Kəmalə xanım, sosial şəbəkələrdə uşaqların müdafiəsi ilə bağlı yeni tənzimləmələrə niyə məhz indi ehtiyac yarandı?**

● Əslində, biz buna çoxdan başlamalı idik. Mən 2005-ci ildən birbaşa uşaqlar və ailələrlə işləyirəm. İş prosesində əyani olaraq görürəm ki, texnologiyalar günbəgün inkişaf edir, hər saniyə yeniliklər baş verir. Biz zaman axarında bəzən çox şeyi izləməyi çatdırmırıq. Məsələn, gələn “keys”lərdən görə bilirik ki, sən demə, "whatsaap"dan başqa da çat varmış. Bunu uşaqlar bilir, amma biz bilmirik. Bu qanun sırf təhlükəsizlik baxımından uşaqlara yönəli olduğu üçün vacibdir. Atılan addım xüsusən həssas təbəqədən olan insanlar üçün zəruridir. İnternetdə bu təbəqələrə mənfi təsir edənləri biz “yırtıcı” adlandırırıq. Belə bir şəraitdə bizə uşaqların müdafiəsini təmin etmək üçün qanunverici baza lazım idi. Həm də bu, təkcə uşaqları qorumaq üçün deyil. Bu, həm də müvafiq kontentləri yaradan adamlar üçündür ki, onlar da çəkinsinlər. Bu dəyişikliklər həm də böyüklərə yönəlikdir. Digər ölkələrin də bu cür təcrübəsi var.

### “SOSİAL ŞƏBƏKƏLƏRİN UŞAQLAR ÜÇÜN YARATDIĞI ƏSAS RİSKLƏR ÇOXDUR”

**● Sosial şəbəkələrin uşaqlar üçün yaratdığı əsas risklər hansılardır? Sizcə, qanunvericiliyə edilən dəyişikliklər həmin risklərin qarşısını almağa kömək edəcəkmi?**

● Sosial şəbəkələrin uşaqlar üçün yaratdığı əsas risklər çoxdur. Bu, təkcə hamımızın gördüyü internet asılılığı deyil. Tanışlıq, kiber bullinq, tanışlıqlardan irəli gələn şantaj, evdən qaçma, oğurluğa sövq edilmə, təhdid, intihara sövq edilmə, özünün qiymətləndirilməsinin aşağı endirilməsi, oyunlardan asılılıq və s. Asılılıq səbəbindən səhhətin pozulması, aqressivləşmə və digər risklər də yaranır. 5-12 yaşlı uşaqların “Kontrosteyk”, “Maykraft”, “Robosk” oyunlarıdır ki, məhz öldürməyə və xəsarət yetirməyə sövq edir. Bu oyunlar səhhətə təsir etməklə yanaşı, ödəniş məsələsini də gündəmə gətirir. Bu vəziyyətdə uşaqlar evdən valideynlərinin bank kartlarını götürüb istifadə edirlər. Bəziləri sinif yoldaşları ilə oynayır. Tədricən onlayn sistemdə kim varsa, onunla danışmağa başlayırlar və yeni tanışlıqlar yaranır. Xüsusi adamlar var ki, onlar uşaqları cəlb etməyə başlayırlar. Oyunlar üçün ödənişlər dörd dollardan başlayır. Bu qiymətə 1000-4000 arası resurs alırsan. Uşaq şirnikləşir və bu, onu qumar sisteminə çəkir. Digər tərəfdən, böyüklər də “pul qoyacağam, faiz gələcək” istəyi ilə bu platformalara üz tuturlar. Bu qanun həm də həmin insanlar üçün lazımdır. Biz uşaqları bu oyunların yaradıcılarından müdafiəsinə nail olur, digər tərəfdən, onların təhlükəsizliyini təmin edirik. Paralel olaraq həm də onları maarifləndiririk ki, uşaq nəyi göndərə, nəyi yaza bilər.

**● 16 yaş həddinin müəyyənləşdirilməsi hansı meyarlara və beynəlxalq təcrübəyə əsaslanır?**

● Əslində bu, həm beynəlxalq təcrübə, həm də yerli qanunvericiliyimizlə uzlaşır. Avstraliya, Böyük Britaniya, Çin, Koreya kimi ölkələrdə bu qanun və bu yaş həddi məhdudiyyəti var. ABŞ-də isə kodeksdir. Ölkələrin əksəriyyətində yaş həddi 15-16 yaş götürülüb. Uşağın fiziki olaraq yetişkənliyi, beyninin psixoloji inkişafı nəzərə alınır. 16 yaş həm də uşağın anlayışlı dövrüdür. Qərarların qəbulunda öz iştirakçılığını təmin edə bilir.

**● 16-18 yaş arası yeniyetmələr üçün valideyn razılığı mexanizmi necə işləyəcək? Valideynlərin bu prosesdə rolu nədən ibarət olacaq?**

● Bəziləri deyə bilərlər ki, bu, uşaq hüquqları konvensiyasının prinsiplərinin pozulmasıdır. Burada şəxsi toxunulmazlıq, şəxsi sərhədlər və söz azadlığı məsələsi ziddiyyət yarada bilər. Ancaq burada başqa bir məqam da var: biz hüquqlarla yanaşı, vəzifələri yada salmalıyıq. Konvensiya da deyir ki, uşağın məsuliyyətli şəxsi valideynidir. O, mütləq qaydada övladının təhlükəsizliyinin müdafiəsini təmin etməlidir. Bu qanun nə uşağın azadlığını əlindən alır, nə də şəxsi sərhədlərinə maneə törədir. Sadəcə, 16 yaşa qədər uşaqlar istifadə etdikləri sosial platformalarda qeydiyyatı mütləq valideynlərinin iştirakı ilə həyata keçirməlidirlər. Uşaq anlamalıdır ki, rəqəmsal təhlükə hər zaman ola bilər və bunu valideynə danışmalıdır. Valideyn nəzarəti uşağın əlindən telefonu kobud şəkildə almaq kimi olmamalıdır. Məncə, bu qanun həm də uşaqla valideyn arasında bağların yaranmasına səbəb olacaq. Valideyn uşağına daha çox diqqət edəcək. Hesab edirəm ki, qanunvericiliyə etdiyimiz bu dəyişikliklərlə bu günə qədər nail ola bilmədiyimiz bəzi boşluqları aradan qaldıra biləcəyik.

*“Məncə, bu qanun həm də uşaqla valideyn arasında bağların yaranmasına səbəb olacaq. Valideyn uşağına daha çox diqqət edəcək.”*

**● Valideynlər tanıyıram ki, ümumiyyətlə sosial platformaların nə olduğundan məlumatsızdırlar. Başları gündəlik qayğılarına qarışıb, marağı yoxdur, savadı çatmır və s. Bəs belə valideynlər nəzarəti necə tənzimləyəcəklər?**

● İlk növbədə valideyn rəqəmsal savadlılığa yiyələnməlidir. Qanun təkcə cəzalardan ibarət deyil, paralel olaraq müdafiə və profilaktik tədbirlər də olmalıdır. Buna maarifləndirmə də daxildir. Dövlət qurumları, vətəndaş cəmiyyəti valideynə “niyə sən bilmirsən?” deməməli, qınamamalıdır. O bilikləri heç olmasa səthi də olsa valideynə öyrətməliyik. Bu, himayəsində uşaq olan nənə-babalara da şamil olunacaq. Rəqəmsal savadlılığı artırmaq üçün təlimlər, seminarlar təşkil ediləcək. Nəyisə qadağan ediriksə, alternativ verməyi də bacarmalı, digər tərəfdən maarifləndirməni gücləndirməliyik. Amma biz deyə bilmərik ki, bütün valideynləri 100 faiz maarifləndirəcəyik. Bu illərlə davam edəcək, zaman aparacaq. Məktəblərdə rəqəmsal savadlılığın artırılması da mütləqdir. Bu, tədris planına salınmalıdır. Çünki biz valideyndən vəzifə və məsuliyyətini tələb edirik. Amma hamının düşünmə və qavrama qabiliyyəti eyni deyil. Ona görə paralel olaraq yetişən nəslə məktəblərdə də rəqəmsal savadlılıq verməliyik. Yəni valideynin verə bilmədiyini heç olmasa məktəb verməlidir. Təəssüf ki, hələlik bunu tədrisdə tətbiq edə bilmirik. Məktəblərdə informatika dərslərimiz var, amma bu, sırf proqramlaşmanı öyrədir, rəqəmsallaşmanı yox.

**● Müəllimlər bu yeni təcrübəyə hazırdırlarmı?**

● Bu sahədə də boşluq var. Mütləq bunu da düşünməliyik. Rəqəmsal savadlılığı tədris edən kadrlar varmı? Ona görə bu qanun şaxələnəcək: məktəbdə həkimlər, psixoloqlar, sosial işçilər, müəllimlər və inzibati rəhbərlər mütləq qaydada rəqəmsal savadlılığın ilkin dərəcələrini bilməlidirlər.

Bu məsələdə yönləndirmə sistemi də çox vacibdir.







Fotolar: Məhəmməd Suanverdiyev/Global Photostock

## "Uşaqlara elə vasitə verməliyik ki..."

**● Maraqlıdır, sosial şəbəkələrdə yaşın yoxlanılması hansı üsullarla həyata keçiriləcək? İstifadəçilərin şəxsi məlumatlarının qorunması necə təmin olunacaq?**

● Bu, əslində çox çətindir. Tam əminliklə deyə bilmərik ki, qanun bunları tamamilə qoruyacaq. Mən həmişə deyirəm: bu günün uşaqları bizdən daha çevik və bacarıqlıdırlar. Onlar çox yeniliyi bizdən tez görür, qavrayır və mənimsəyirlər. Mən ”Siqnal” adında bir platformanın olmasını bir ay əvvəl, bir uşağın “keys”indən bilmişəm. Sən demə, bu, ikinci whatsap-dır və xeyli müddətdir fəaliyyət göstərir. Uşaqlar daha çox araşdırmaçı və həvəslidirlər. Qadağalar onlara daha şirin görünür. Nəyi paylaşa bilərəm, nəyi yox, artıq savadlılıq məsələsidir. Şəxsi məlumatların verilməsi, uşaqların qeydiyyat sistemini qurmaq bütün dünyada çətindir. Bu qanunları qəbul edən inkişaf etmiş ölkələr belə bunu tam başa çatdıra bilməyiblər. Uşaqları bütünlüklə qoruyan sistem hələ tam mümkün deyil. Ona görə biz deyə bilmərik ki, bu qanun uşaqları tamamilə müdafiə edəcək. Çünki internet özü böyük bir şəbəkədir, milyonlarla platforma var, alternativlər çoxdur, vasitələr müxtəlifdir. Aidiyyəti qurumlar bizdə də bu müdafiə sistemini yaradacaqlar. Onların İT mütəxəssisləri proqramı qanuna elə uyğunlaşdırmalıdırlar ki, risklər olmasın. Biz uşaqlarımıza vəzifələrini başa salanda onlara qorxmadan, situasiyadan asılı olmadan məlumat verməyi öyrətməliyik. Uşaq qaynar xətləri bütün dünyada ilkin aşkarlayan alətdir. Amma hələ bizim regionlarda uşaqlar bundan xəbərsizdirlər.

Bizim işimiz paralel olaraq monitorinqlər etməkdir. İşlək bir sistem qurulmalıdır. Qanunun icrasında bütün dövlət qurumları öz səlahiyyətlərini dərk etməlidir.

### “UŞAQLARIN ƏYLƏNMƏSİ ÜÇÜN ALTERNATİV ŞƏRAİT YARATMALIYIQ”

**● Qanunun icrasında sosial şəbəkə platformalarının üzərinə hansı öhdəliklər düşəcək?**

● Provayderlərdən tutmuş platformaları yaradanlara qədər - hamının öhdəliyi olacaq. Bu qanun onları çəkindirəcək, öz platformalarını mütəmadi təhlil etməyə sövq edəcək. Yaradılma baxımından icazələrin verilməsi, dövlət qurumlarının yaradılan platformalar haqqında məlumatlandırılması, monitorinq keçirilməsi və yüksək cərimələr tətbiq olunacaq.

**● Sizcə, sosial şəbəkələrdə yaş məhdudiyyətinin tənzimlənməsinin uşaqların şəxsi inkişafına və gələcəyinə hansı faydası olacaq?**

● Məncə, olacaq. Ailə ünsiyyəti bərpa olunacaq, uşaqlar böyüklərlə real ünsiyyətə sövq olunacaqlar. Ümid edirik ki, atılacaq addımlar valideynlə uşağın daha çox vaxt keçirməsinə səbəb olacaq. Uşaqların mənəvi, psixoloji və fizioloji sağlamlıqlarını qaytaracağıq. Valideyn bəzən uşaqlara istədikləri məşğuliyyəti verə bilmir. Bizim regionlarda sosial reabilitasiya mərkəzlərimiz yoxdur. Bu da bir boşluqdur. Biz real həyatda sosiallaşmaq, ailə dəyərlərini qaytarmaq üçün hərəkət etməliyik. Məktəblər uşağa qarşı qapalı sistem yaradıb ki, dəhlizdə qaçma, sinifdə hərəkət etmə... Bəs uşaq enerjisini harada atmalıdır? Biz uşaqların əylənməsi üçün alternativ şərait yaratmalıyıq. Bu işdə böyüklərin psixi sağlamlığı da önəmlidir. Bu baxımdan, öz üzərimizdə də işləməliyik. Sosial yönümlü reklamlar olmalıdır. Bizdə bu sahədə də böyük boşluqlar var. TV-lərdə, radiolarda bu mövzuda danışılmalı, yollarda maarifləndirici banerlər vurulmalıdır. Valideynlər, bütövlükdə isə cəmiyyət xəbərdar olmalıdır ki, belə bir qanun var və onun tələbləri nədən ibarətdir.

# BİRİNCİ YARIMİLLİKDƏ İQTİSADİYYATIMIZ BÖYÜYÜB



2026-cı ilin yanvar-iyun aylarında Azərbaycanda 65 milyard 207 milyon manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal olunub. Bu, ötən ilin eyni dövrünə nisbətən 0,8 % çoxdur.

Azərbaycan iqtisadiyyatının inkişaf tempi ilə bağlı bu ilin altı aylıq göstəriciləri açıqlanıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2026-cı ilin yanvar-iyun aylarında Azərbaycanda 65 milyard 207 milyon manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal olunub. Bu, ötən ilin eyni dövrünə nisbətən 0,8 % çoxdur.

O cümlədən, son 1 ildə ölkənin neft-qaz ÜDM-nin dəyəri 0,7 % azalaraq 19 milyard 610,5 milyon manata düşüb, qeyri-neft-qaz ÜDM-nin dəyəri isə 1,5 % artaraq 55 milyad 596,5 milyon manata çatıb.

### BU İL ÖLKƏDƏ İQTİSADİ ARTIMIN 1,1 FAİZ OLACAĞI GÖZLƏNİLİR

Azərbaycan Mərkəzi Bankının (AMB) yenilənmiş proqnozlarına görə, bu il ölkədə iqtisadi artımın 1,1 %, o cümlədən qeyri-neft-qaz sektoru üzrə 3,2 % olacağı gözlənilir.

Hökumətin yenilənmiş proqnozlarına görə, 2026-cı ildə ÜDM-in artımı 1,7 %, neft-qaz sektoru üzrə iqtisadi azalma 3,3 %, qeyri neft-qaz sektoru üzrə isə iqtisadi artım 3,7 % səviyyəsində olacağı gözlənilir.

6 ay ərzində ölkədə sənaye istehsalının ümumi dəyəri illik müqayisədə 0,1 % artaraq 33 milyard 71 milyon manat, o cümlədən qeyri-neft-qaz sənayesi istehsalının ümumi dəyəri 4,1 % artaraq 10 milyard 769,6 milyon manat, kənd təsərrüfatı istehsalının ümumi dəyəri 2,2 % artaraq 7 milyard 85,3 milyon manat, nəqliyyat və anbar təsərrüfatı xidmətlərinin ümumi dəyəri 8 % artaraq 7 milyard 817,6 milyon manat, informasiya və rabitə xidmətlərinin ümumi dəyəri 7,5 % artaraq 1 milyard 966,5 milyon manat təşkil edib.



### STRATEJİ VALYUTA EHTİYATLARIMIZ DA ARTIB

İqtisadi inkişaf templəri digər göstəricilər üzrə də müsbətdir. Bu il iyulun 1-nə Azərbaycanın strateji valyuta ehtiyatları 85 milyard 768,9 milyon ABŞ dolları təşkil edib. Bu, ötən il iyulun 1-nə nisbətən 10,4 % çoxdur. Bununla belə, iyunda ölkənin strateji valyuta ehtiyatları 2 milyard 669,7 milyon ABŞ dolları azalıb.

Hesabat dövründə Azərbaycan əhalisinin nominal gəlirləri 47 milyard 309 milyon manat təşkil edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 10,3 % çoxdur. Bu ilin yanvar-may aylarında Azərbaycanda muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı isə 1 175 manat təşkil edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 7,3 % çoxdur. Xatırladaq ki, yanvar-aprel aylarının yekununda ölkədə orta maaş 6,5 % artmışdı.

### AZƏRBAYCANIN XARİCİ DÖVLƏT BORCU 7,9 FAİZ AZALIB

Bu ilin yanvar-iyun aylarında Azərbaycanda əsas kapitala 9 milyard 295,2 milyon manat investisiya yönəldilib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə real ifadədə 13,8 % çoxdur. O cümlədən, son 1 ildə qeyri-neft-qaz sektoruna investisiya qoyuluşu 5,5 % artaraq 6 milyard 131,6 milyon manat təşkil edib.

Bu il iyulun 1-nə Azərbaycanın xarici dövlət borcu 4 milyard 616,8 milyon ABŞ dolları təşkil edib. Bu, ötən il iyulun 1-nə nisbətən 7,9 % azdır. Təkcə iyunda ölkənin xarici dövlət borcu 25,6 milyon ABŞ dolları azalıb. Ötən il ölkənin xarici dövlət borcu 6,7 % azalaraq 4 milyard 813,5 milyon ABŞ dollara (8 milyard 183 milyon manata) düşüb.

Yeri gəlmişkən, Asiya İnkişaf Bankı da (ADB) Azərbaycanın ÜDM-nin 2026-cı ildə 2 %, 2027-ci ildə isə 1,8 % artacağını gözləyir. Bu barədə ADB-nin "Asiyanın İnkişaf Perspektivləri" adlı iyul icmalında bildirilir. Bank Azərbaycan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan üçün proqnozları hər iki il üzrə dəyişməz saxlayıb.






# Süni intellekt üçün internet Bakcell-dən

Bakcell süni intellekt sahəsində növbəti innovativ təşəbbüsünü təqdim edir. Yeni kampaniya çərçivəsində ChatGPT, Claude, DeepSeek və Perplexity kimi aparıcı süni intellekt platformalarında istifadə üçün abunəçilərə hər ay pulsuz internet trafiki təqdim olunacaq.

Bakcell istifadəçiləri süni intellekt texnologiyaları vasitəsilə öyrənmək, araşdırmaq, yaratmaq, işləmək və rəqəmsal tapşırıqları daha səmərəli yerinə yetirmək üçün geniş imkanlar əldə edirlər.

Xidmət bütün Bakcell abunəçiləri üçün standart olaraq aktivdir və əlavə qoşulma tələb etmir. Kampaniya müddətində istifadəçilərə hər ay qeyd olunan süni intellekt alətlərindən istifadə üçün pulsuz internet trafik təqdim olunacaq. Bu təşəbbüs süni intellekt texnologiyalarının gündəlik istifadəsini təşviq etməklə yanaşı, istifadəçilərin rəqəmsal imkanlarını daha da genişləndirir.

Bakcell innovativ həllər vasitəsilə abunəçilərinə müasir rəqəmsal təcrübə təqdim etməklə ölkədə innovasiya və süni intellekt ekosisteminin inkişafına töhfə verir.

Bakcell Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan Bakcell süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir.

Bakcell müxtəlif ölkələrdə və sahələrdə fəaliyyət göstərən NEQSOL Holding beynəlxalq şirkətlər qrupunun tərkibində olan Azerconnect Group-a daxildir.


Kaspi
ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Rasim Məzahiroğlu, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qazet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 890
Tiraj: 2650
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# TƏLƏB ÇOX, YER İSƏ YENƏ DƏ AZ



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

**Məktəbəqədər təhsil müəssisələrinə elektron qəbul başlayıb. Bu il də valideynləri ən çox düşündürən məsələlər dövlət bağçalarında yer təminatı, yeni məktəbəqədər təhsil müəssisələrinin istifadəyə verilməsi və özəl bağçalarda tətbiq olunan qiymətlərdir.**

Bu həftə məktəbəqədər təhsil müəssisələrinə elektron qəbul başlayıb. Hər il olduğu kimi, minlərlə valideyn övladını bağçaya yerləşdirmək üçün mübarizə aparır. Bu il də valideynləri ən çox düşündürən məsələlər dövlət bağçalarında yer təminatı, yeni məktəbəqədər təhsil müəssisələrinin istifadəyə verilməsi və özəl bağçalarda tətbiq olunan qiymətlərdir.

Bu ili əvvəlki illərdən fərqləndirən əsas yenilik məktəbəqədər təhsil sahəsində valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan maliyyələşmə modelinin tətbiqidir.

### "TƏHSİL HAQQININ BİR HİSSƏSİNİ DÖVLƏT ÖDƏYƏCƏK"

Elm və Təhsil Nazirliyindən bildirilir ki, yeni model çərçivəsində müəyyən ediləcək qaydalara əsasən, övladını özəl məktəbəqədər təhsil müəssisəsinə yerləşdirən valideynlərə dövlət tərəfindən maliyyə dəstəyi göstəriləcək. Başqa sözlə, aylıq təhsil haqqının müəyyən hissəsi dövlət büdcəsi hesabına qarşılanacaq. Nazirlik qeyd edir ki, bu yanaşma daha çox uşağın məktəbəqədər təhsilə cəlb olunmasına, valideynlərin seçim imkanlarının genişlənməsinə və özəl məktəbəqədər təhsil müəssisələrinin inkişafına töhfə verəcək.

### "13 MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏSİ İSTİFADƏYƏ VERİLİB"

Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən (MÜTDA) qəzetimizə verilən məlumata görə, 2025-2026-cı tədris ilində ümumi tutumu 1384 nəfər olan 13 məktəbəqədər təhsil müəssisəsi istifadəyə verilib. Bu tədris ili üçün dövlət məktəbəqədər təhsil müəssisələrinin qəbul imkanlarına gəldikdə isə, Agentlikdən bildirildi ki, məktəbəqədər təhsilə cəlb olunmuş uşaqların 1-5 yaşlılara nisbətinin 50 faizə çatdırılması nəzərdə tutulub: "Ümumilikdə 6605 qrup olmaqla, 1671 məktəbəqədər təhsil müəssisəsi üzrə qəbulun aparılması planlaşdırılır".

MÜTDA-nın məlumatına görə, Bakı və Abşeron rayonu Xırdalan şəhərində əhalinin məskunlaşma səviyyəsi yüksək olduğundan bağçalara qəbul zamanı müəyyən sıxlıq müşahidə olunur: "Bunu aradan qaldırmaq üçün alternativ təhsil modellərindən uğurla istifadə olunur (icma əsaslı məktəbəqədər təhsil qrupları, özəl-dövlət tərəfdaşlığı ilə bağlı qrant layihəsi, ailə tipli təlim qrupları). Alternativ modellərlə yanaşı bağça infrastrukturunun genişləndirilməsi də diqqət mərkəzində saxlanılır. Növbəlilik və prioritetlik prinsipi əsasında məktəbəqədər təhsil müəssisələri inşa edilir".

## İNFRASTRUKTUR VƏ TƏLƏBAT ARASINDA UYĞUNSUZLUQ

Təhsil eksperti İlqar Orucov deyir ki, məktəbəqədər təhsil sistemində elektron qəbulun tətbiqi şəffaflığın artırılmasına xidmət etsə də, infrastrukturla tələbat arasındakı uyğunsuzluq hələ də əsas problem olaraq qalır: "Ölkədə məktəbəqədər yaşda təxminən 600 min uşaq olduğu halda, dövlət bağçalarında mövcud yerlər bu rəqəmin çox kiçik hissəsini əhatə edir. Yer çatışmazlığı xüsusilə regionlar üzrə qeyri-bərabər şəkildə özünü göstərir. Bakı, Sumqayıt və Gəncə kimi böyük şəhərlərdə, eləcə də əhalinin sıx məskunlaşdığı yeni yaşayış massivlərində dövlət uşaq bağçalarında yer çatışmazlığı ciddi problemdir".

### "VALİDEYNLƏR SİSTEMƏ UYĞUNLAŞA BİLMİR"

İ.Orucovun fikrincə, elektron qəbul sisteminin tam səmərəli işləməsinə mane olan problemlər hələ də qalır: "Sistem aktivləşən kimi bəzi bağçalarda yerlər bir neçə dəqiqə, hətta bəzən saniyələr ərzində dolur. Bu da valideynlərin narazılığına səbəb olur və uzun növbələr yaradır. Valideynlərə maksimum üç bağça seçmək imkanı verilsə də, daha çox tələbat olan bağçalarda növbəyə yazılan uşaqlar aylarla gözləməli olur. Digər tərəfdən, yaşayış yerini dəyişən və ya elektron xidmətlərdən istifadə bacarıqları zəif olan valideynlər üçün sistemə uyğunlaşmaq da çətinliklər yaradır".

Həmsöhbətimizin sözlərinə görə, dövlət uşaq bağçalarında yer çatışmazlığının əsas səbəbləri infrastruktur problemləri və kadr çatışmazlığıdır: "Paytaxtda və iri şəhərlərdə yeni yaşayış kompleksləri tikilsə də, paralel olaraq kifayət qədər uşaq bağçası və məktəb inşa edilmir. Bəzi yaşayış massivlərində hətta yeni təhsil müəssisələrinin tikintisi üçün torpaq sahəsi tapmaq çətinləşir. Bu problem xüsusilə Binə, Masazır və oxşar ərazilərdə daha qabarıq hiss olunur. Digər tərəfdən, mövcud məktəbəqədər təhsil müəssisələrinin bir hissəsi köhnəlib. Müstəqilliyin ilk illərində isə bir sıra bağçalar özəlləşdirilərək və ya təyinatı dəyişdirilərək başqa məqsədlər üçün istifadə olunub".


İlqar Orucov


Xalidə Həmidova

## "Dövlət uşaq bağçaları tələbatı qarşılaya bilmir"

Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti Xalidə Həmidova bildirir ki, məktəbəqədər təhsil müəssisələrində qrupların komplektləşdirilməsi "Məktəbəqədər təhsil haqqında" qanunla tənzimlənir: "Qanuna əsasən, 3-6 yaş qruplarında maksimum 20, 1-3 yaş qruplarında isə 15 uşaq ola bilər. Qarışıq yaş qruplarında bu rəqəm müvafiq olaraq 15 və 10 nəfərdir. Elektron qəbul sistemi də məhz bu normalara uyğun işləyir və müəyyən edilmiş limitdən artıq qəbul aparılmasına imkan vermir. Əvvəllər bəzi bağçalarda bir qrupda 40-50 uşağın olması halları müşahidə olunurdu, lakin hazırda sistem buna imkan vermir". X.Həmidovanın sözlərinə görə, dövlət uşaq bağçaları tələbatı qarşılamır: "Hesablamalara əsasən, dövlət bağçaları məktəbəqədər yaşlı uşaqların təxminən 16 faizini qəbul edə bilir. Yerdə qalan uşaqların məktəbəqədər təhsilə cəlb edilməsi üçün məktəbəhazırlıq qrupları, icma əsaslı qruplar və digər alternativ modellər tətbiq olunur. Hazırda valideyn-dövlət-özəl əməkdaşlığı modeli də bu istiqamətdə nəzərdə tutulan mexanizmlərdəndir. Bu modellər hesabına məktəbəqədər təhsilin əhatə dairəsi təxminən 36 faizə çatır". X.Həmidova hesab edir ki, bu il də əvvəlki illərlə müqayisədə əsas problemlər dəyişməyib: "Bağçalarda yerlərin sayı əvvəlki səviyyədə qalır. Bir neçə yeni bağçanın istifadəyə verilməsi tələbatı qarşılamaq üçün kifayət etmir. Yer çatışmazlığı əsasən Bakı və digər iri şəhərlərdə müşahidə olunur. Bir çox rayon və kəndlərdə isə əksinə, qruplar uşaq azlığı səbəbindən bağlanır".

### "AİLƏLƏRİN ƏKSƏRİYYƏTİ ÜÇÜN ÖZƏL BAĞÇALAR ƏLÇATAN DEYİL"

Dövlət bağçalarında yer çatışmazlığı səbəbindən bir çox valideyn alternativ kimi özəl məktəbəqədər təhsil müəssisələrinə üz tutur. Lakin özəl bağçalarda tətbiq olunan aylıq ödənişlər hər ailənin büdcəsinə uyğun gəlmir. Burada aylıq ödənişlər müəssisənin yerləşdiyi əraziyə, təqdim olunan xidmətlərə və tədris proqramına görə dəyişir. Hazırda Bakıda özəl uşaq bağçalarında aylıq ödənişlər, əsasən, 350-400 manatdan başlayır. Tədris proqramı, xarici dil tədrisi, iş saatları və əlavə xidmətlərdən asılı olaraq qiymətlər 700-1000 manat, bəzi premium müəssisələrdə isə 1000 manatdan yuxarı dəyişə bilir.

Təhsil eksperti İlqar Orucov hesab edir ki, özəl bağçalarda yüksək təhsil haqları da dövlət bağçalarına tələbatı artıran əsas amillərdəndir: "Orta aylıq əməkhaqqını nəzərə alsaq, iki uşağı olan ailələrin əksəriyyəti üçün özəl bağçalar əlçatan deyil. Nəticədə valideynlər dövlət bağçalarını yeganə münasib alternativ kimi görürlər ki, bu da müraciətlərin sayını artırır".



# MƏSAFƏDƏN KREDİTLƏR DAHA TƏHLÜKƏSİZ OLACAQ

**Oktyabrın 1-dən vətəndaşlar öz adlarına məsafədən kredit rəsmiləşdirilməsini qadağan edə biləcəklər. Yeni təhlükəsizlik mexanizmi kiberdələduzluğun qarşısını almağı və vətəndaşların xəbəri olmadan kredit götürülməsi hallarını minimuma endirməyi hədəfləyir.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Son illərdə bank xidmətlərinin rəqəmsallaşması ilə istehlak kreditlərinin bir neçə dəqiqə ərzində mobil tətbiq və ya internet bankçılığı vasitəsilə rəsmiləşdirilməsi adi hala çevrilib. Lakin bu rahatlıq kiberdələduzluq risklərini də artırıb. Vətəndaşların xəbəri olmadan onların adına kredit götürülməsi, bank məlumatlarının ələ keçirilməsi və onlayn maliyyə fırıldaqları ilə bağlı müraciətlərin artması fonunda Mərkəzi Bank məsafədən verilən istehlak kreditləri üzrə yeni təhlükəsizlik tələbləri müəyyənləşdirib. Oktyabrın 1-dən qüvvəyə minəcək dəyişikliklərə əsasən, vətəndaşlar istədikləri halda öz adlarına məsafədən istehlak kreditinin rəsmiləşdirilməsinə məhdudiyyət qoya biləcəklər. Banklar və bank olmayan kredit təşkilatları belə məhdudiyyətlərin olub-olmadığını həm öz informasiya sistemlərində, həm də Kredit Bürosunun bazasında yoxlamalı olacaqlar. Bundan əlavə, məsafədən rəsmiləşdirilən istehlak kreditləri üzrə vəsait dərhal deyil, məbləğdən asılı olaraq 2 saat və ya 24 saat sonra təqdim ediləcək. Məhdudiyyət tətbiq etmiş şəxsin adına məsafədən kredit rəsmiləşdirilməsinə cəhd olunduqda isə o, dərhal SMS və ya mobil tətbiq vasitəsilə məlumatlandırılacaq. Bəs bu yeniliklər praktikada nəyi dəyişəcək? Yeni qaydalar kredit alma prosesini çətinləşdirəcək, yoxsa sadəcə daha təhlükəsiz edəcək?

### "BELƏ BİR MEXANİZMİN TƏTBİQİ ZƏRURİ İDİ"

Bank eksperti Emin Kərimovun sözlərinə görə, məsafədən kreditləşmə qaydalarına edilən dəyişikliklər ilk növbədə bank sisteminə olan etimadın güclənməsinə və onlayn kredit-ləşmədə təhlükə-sizliyin artırılmasına xidmət edir: "Son dövrlərdə vətəndaş müraciətlərinin əhəmiyyətli hissəsi məhz məsafədən rəsmiləşdirilən istehlak kreditləri ilə bağlı olub. Xüsusilə şəxsin xəbəri olmadan onun adına kredit rəsmiləşdirilməsi və ya bank kartlarından qanunsuz vəsait çıxarılması halları belə bir mexanizmin tətbiqini zəruri edib. Bu baxımdan, yeni tələblər vətəndaşların maliyyə təhlükəsizliyinin gücləndirilməsi istiqamətində mühüm addım hesab oluna bilər".

E.Kərimov bildirdi ki, yeni qaydalara əsasən, məsafədən rəsmiləşdirilən kreditlər üzrə vəsait dərhal təqdim edilməyəcək: "Müəyyən edilmiş gözləmə müddəti vətəndaşa kredit əməliyyatından vaxtında xəbər tutmaq, şübhəli hal aşkar etdikdə banka müraciət etmək və zəruri tədbirlər görmək imkanı yaradır. Kredit alma mexanizmi mahiyyət etibarilə dəyişmir, sadəcə mövcud sistemə əlavə təhlükəsizlik elementi inteqrasiya olunur. Məqsəd vətəndaşların fərdi məlumatlarından qanunsuz istifadənin və kiberdələduzluq hallarının qarşısını almaqdır".



## "RİSKLƏR MİNİMUMA ENƏCƏK"

Ekspertin fikrincə, qərarın məhz indi qəbul olunması da təsadüfi deyil. Son illərdə telefon və internet üzərindən həyata keçirilən dələduzluq cəhdlərinin, şəxsi məlumatların ələ keçirilməsi və vətəndaşların adından kredit rəsmiləşdirilməsi ilə bağlı müraciətlərin artması əlavə təhlükəsizlik tədbirlərini zəruri edib: "Hesab edirəm ki, yeni qoruma mexanizmi kiberdələduzluq hallarının azalmasına müsbət təsir göstərəcək. Həm vətəndaşların, həm də bankların üzləşdiyi riskləri minimuma endirməyə kömək edəcək. Banklar üçün də ciddi əlavə maliyyə və ya texniki yük yaranacağını düşünmürəm. Çünki yeni tələblər tamamilə yeni infrastrukturun qurulmasını deyil, mövcud sistemin əlavə təhlükəsizlik mexanizmləri ilə təkmilləşdirilməsini nəzərdə tutur".

### "DƏLƏDUZLUQ HALLARI AZALACAQ"

Kredit mütəxəssisi İsmayıl Məmmədov isə düşünür ki, telefonunuz əlinizdə olduğu halda kiminsə sizi aldadaraq qısa müddətdə adınıza kredit rəsmiləşdirməsi mümkündür. Azərbaycan Mərkəzi Bankının məsafədən verilən istehlak kreditləri ilə bağlı yeni tələbləri də məhz bu riski azaltmağa hesablanıb: "Yeni qaydalara əsasən, hər bir vətəndaş banka yazılı müraciət etməklə öz adına internet bankçılığı, mobil tətbiq və digər onlayn kanallar vasitəsilə istehlak kreditinin rəsmiləşdirilməsinə məhdudiyyət qoya biləcək. Bu, bir növ vətəndaşın öz adına məsafədən kredit götürülməsinə "stop" qoyması deməkdir. Belə məhdudiyyət yalnız müştərinin bankda fiziki iştirakı, gücləndirilmiş elektron imzası və ya gücləndirilmiş müştəri autentifikasiyası əsasında aradan qaldırıla biləcək".

İ.Məmmədovun fikrincə, yeni tələblərin digər mühüm tərəfi kredit vəsaitinin dərhal təqdim edilməməsidir. İndiyədək məsafədən kredit təsdiqlənən kimi vəsait hesabda görünürdüsə, oktyabrın 1-dən etibarən minimum aylıq əməkhaqqının iki mislinədək olan kreditlər üzrə vəsait iki saat, daha yüksək məbləğlər üzrə isə 24 saat sonra təqdim ediləcək: "Bu gözləmə müddəti vətəndaşa aldadıldığı halda vəziyyəti vaxtında qiymətləndirmək, banka müraciət etmək və mümkün zərərin qarşısını almaq imkanı yaradacaq".

## KREDİT RƏSMİLƏŞDİRİLMƏSİNƏ CƏHD EDİLƏRSƏ...



Emin Kərimov

Ekspert bildirdi ki, banklar və bank olmayan kredit təşkilatları müştərinin məsafədən kreditə məhdudiyyət qoyub-qoymadığını həm öz informasiya sistemlərində, həm də Kredit Bürosunun bazasında yoxlamalı olacaqlar: "Məhdudiyyət qüvvədə olduğu halda həmin şəxsin adına məsafədən kredit rəsmiləşdirilməsi və ya kredit limitinin artırılması mümkün olmayacaq. Belə şəxsin adına kredit rəsmiləşdirilməsinə cəhd edilərsə, bank onu dərhal SMS və ya mobil tətbiq vasitəsilə məlumatlandıracaq. Vətəndaş özü məsafədən kredit götürürsə, proses əvvəlki kimi davam edəcək, yalnız vəsait müəyyən gözləmə müddətindən sonra təqdim olunacaq. Bu mexanizmi avtomobildə təhlükəsizlik kəmərinə bənzətmək olar: hərəkəti məhdudlaşdırmır, sadəcə riski azaldır. Başqa sözlə, dövlət məsafədən kredit verilməsini qadağan etmir, bu xidməti həm müştərilər, həm də banklar üçün daha etibarlı etməyə çalışır".



İsmayıl Məmmədov

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



## MƏQSƏD YERLİ İSTEHSALÇILARIN RƏQABƏT İMKANLARINI ARTIRMAQDIR

# BALIQ MƏHSULLARI BAHALAŞACAQ

**Gələn ildən Azərbaycana balıq idxalı ilə bağlı vergilərin tətbiqi nəzərdə tutulur. Prosesin mərhələli şəkildə həyata keçirilməsi nəzərdə tutulsa da, istehlakçılar qiymətlərin artacağından narahatdırlar.**

SEVİNC ABBASOVA

Azərbaycanda balıq bazarında yeni mərhələ başlayır. Hökumətin idxal olunan bəzi balıq növlərinə mərhələli şəkildə vergi tətbiq etmək planı həm bazarın qiymət balansına, həm də yerli istehsalın gələcəyinə təsir edəcək qərarlardan biri hesab olunur. Xüsusilə forel, nərə və digər akvakultura məhsulları üzrə nəzərdə tutulan bu dəyişiklik yaxın aylarda mağaza və bazarlardakı qiymətlərdə də hiss oluna bilər.

Hazırda Azərbaycan bazarında satılan balıq məhsullarının mühüm hissəsi xaricdən idxal olunur. Xüsusilə forel, nərə balığı məhsulları və bəzi çəkikimilər üzrə xarici məhsullar bazarda ciddi paya malikdir. İdxal vergisinin tətbiqi isə avtomatik olaraq həmin məhsulların maya dəyərinin yüksəlməsi deməkdir. Bu isə birbaşa satış qiymətlərinə təsir göstərəcək. Başqa sözlə, yaxın mərhələdə xaricdən gətirilən balıqların bahalaşması qaçılmaz görünür.

Ekspertlər hesab edirlər ki, hökumətin yanaşması yalnız qiymət artımı üzərində qurulmayıb. Məqsəd daxili bazarda yerli istehsalçıların rəqabət imkanlarını artırmaqdır. Çünki Azərbaycanda fəaliyyət göstərən bir çox balıqçılıq və akvakultura təsərrüfatları xarici məhsullarla qiymət rəqabətində çətinlik yaşayırlar.

### PROSESƏ MƏRHƏLƏLİ KEÇİD

"Azərbaycan Balıq İstehsalçıları və Emalçıları Assosiasiyası" İctimai Birliyinin sədri Zaur Salmanlı deyir ki, Azərbaycanda yerli balıq istehsalı hələ də aşağı səviyyədədir və idxaldan asılılıq davam edir. Bu səbəbdən idxal məhsullarına rüsum tətbiqi mərhələli şəkildə həyata keçiriləcək. Əsas məqsəd həm yerli istehsalçıları qorumaq, həm də istehlakçının qiymət artımını hiss etməsinin qarşısını almaqdır. Ekspert hesab edir ki, istehsal həcmi artdıqca idxala tətbiq olunan rüsumların da artırılması mümkün olacaq. Bu yanaşma bir tərəfdən daxili bazarın müdafiəsini təmin edəcək, digər tərəfdən isə bazarda qiymət sabitliyinin qorunmasına xidmət edəcək.

Məsələnin digər mühüm tərəfi isə bazarda keyfiyyətə nəzarət və məhsulların düzgün təqdim olunmasıdır. Z.Salmanlı bildirir ki, hazırda ölkəyə idxal olunan bəzi nərəcinsli balıqlar və qara kürü məhsulları yerli məhsul adı altında satışa çıxarılır. Bu isə həm istehlakçının aldadılması, həm də yerli istehsalçıların rəqabət imkanlarının zəifləməsi deməkdir.

### DÖVLƏTİN SİSTEMLİ DƏSTƏYİ VACİB SAYILIR

Ekspertin yanaşmasına görə, balıqçılıq sektorunun inkişafında beynəlxalq təcrübənin öyrənilməsi xüsusi əhəmiyyət daşıyır. Xüsusilə Türkiyənin son 20 ildə keçdiyi inkişaf yolu Azərbaycan üçün uğurlu model hesab olunur. Türkiyədə dövlət dəstəyi nəticəsində yerli balıq istehsalının, istehlakın və milli brendlərin formalaşdırılması sahəsində ciddi nəticələr əldə edilib. Bu təcrübənin yerli şəraitə uyğunlaşdırılması Azərbaycanda da müsbət nəticələr verə bilər. Müsahibimizin fikrincə, bu prosesdə əsas meyar dövlətin istehsala verdiyi sistemli və uzunmüddətli dəstəkdir.

Bununla yanaşı, ekspert Azərbaycanın şirin su ehtiyatlarının məhdud olduğunu da vurğulayır. Bu səbəbdən genişmiqyaslı balıq ixracı barədə düşünməyin real olmadığını bildirir: "Lakin bir istiqamət var ki, burada Azərbaycanın böyük potensialı mövcuddur. Bu, nərəcinsli balıqlar və qara kürü istehsalı sahəsidir. Son illərdə bu istiqamətdə ciddi inkişaf müşahidə olunur və hesablamalarımıza görə, dövlət tərəfindən xüsusi dəstək göstəriləcəyi təqdirdə, Azərbaycan 2027-2028-ci illərdə dünya üzrə ilk beş istehsalçı sırasında yer ala bilər".

### YENİ MEXANİZMLƏR HAZIRLANIR

Azərbaycan Həvəskar Balıqçılar İttifaqının sədri Əfqan Əliyevin sözlərinə görə, 2027-ci ildən etibarən ölkəyə idxal olunan balıq və balıq məhsullarına vergilərin tətbiqi nəzərdə tutulur. Məqsəd daxili bazarın daha dayanıqlı hala gətirilməsidir. Ekspert bildirir ki, bu istiqamətdə dövlət tərəfindən həm maliyyə, həm də texniki dəstək mexanizmləri hazırlanır. Planlara əsasən, balıq yemi ölkəyə idxal edilərək istehsalçılara təqdim olunacaq, eyni zamanda yem xərclərinin bir hissəsi subsidiya formasında qarşılanacaq.

Ə.Əliyev hesab edir ki, idxal məhsullarına vergi tətbiqi ilkin mərhələdə bazarda qiymət artımına səbəb ola bilər. Çünki tətbiq olunacaq vergilər daha çox yerli istehsalçıların maraqlarının qorunmasına xidmət edəcək. Buna görə də o, istehsalçılar üçün müəyyən müddət ərzində güzəştlərin tətbiq edilməsinin vacibliyini vurğulayır. Ekspertin fikrincə, subsidiya və digər dəstək mexanizmləri qiymət artımının daha yumşaq keçməsinə və bazarda sabitliyin qorunmasına kömək edə bilər.

Ekspert qeyd edir ki, hazırda Azərbaycan bazarında satılan balıq məhsullarının təxminən 70 faizi idxal hesabına formalaşır. Yalnız 30 faiz məhsul yerli istehsalın payına düşür.

**"Geosiyasi gərginlik balıq bazarına təsirsiz ötüşməyib"**

Ə.Əliyev onu da vurğulayır ki, Azərbaycana balıq və balıq məhsulları əsasən İran, Rusiya, Türkiyə və Norveçdən idxal olunur. Yerli məhsullar isə daha çox Rusiya bazarına çıxarılır. Xüsusilə təbii su hövzələrində yetişən Azərbaycan balıqlarına xarici bazarlarda yüksək tələbat var və bu məhsullar daha baha qiymətə satılır.

Ekspert dünyada müşahidə olunan geosiyasi gərginliyin balıq bazarına da təsirsiz ötüşmədiyini qeyd edir. Onun sözlərinə görə, son aylarda idxal olunan məhsulların qiymətlərində ciddi dəyişikliklər müşahidə olunub: "Təxminən bir ay əvvəl İrandan gətirilən bəzi balıq növlərinin qiyməti 20-30 faiz artmışdı. Məsələn, forel və çəkikimilərin qiyməti bir müddət əvvəl 20 manata qədər yüksəlmişdi. Hazırda isə qiymətlər müəyyən qədər stabilləşərək 13-14 manat səviyyəsinə enib".



Foto: Rüfət Mikayılov/Global Photostock



Zaur Salmanlı



Əfqan Əliyev

# PSİXOLOQLARIN ƏL YANDIRAN QƏBUL QİYMƏTLƏRİ

Seans qiymətləri mütəxəssisin təcrübəsinə, ixtisaslaşma sahəsinə, qəbulun fərdi və ya onlayn keçirilməsinə görə fərqlənir. Psixoloq seanslarının qiymətləri hazırda 80 manatdan başlayaraq 500 manata qədər yüksəlir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Son illərdə pandemiyanın yaratdığı uzunmüddətli təsirlər, qlobal gərginliklər, eləcə də sosial və iqtisadi təzyiqlər insanların psixoloji vəziyyətinə təsirsiz ötüşməyib. Tələbat və izləyici sayı artdıqca, seans qiymətləri də fantastik həddə çatır. Maraqlıdır, Azərbaycanda psixoloq seansları neçəyədir?

### SEANSLARIN QİYMƏTLƏRİ 80-500 AZN ARALIĞINDA DƏYİŞİR

Seans qiymətləri mütəxəssisin təcrübəsi, ixtisaslaşma sahəsi, qəbulun fərdi və ya onlayn keçirilməsi, həmçinin klinika və ya şəxsi kabinet amillərinə görə fərqlənir. Araşdırmamıza əsasən məlum olur ki, psixoloq seanslarının qiymətləri hazırda 80 manatdan başlayaraq 500 manata qədər yüksəlir. Canlı görüşlər adətən onlayn seanslarla müqayisədə bir qədər baha olur. Onlayn konsultasiyalarda qiymətlər 1 saatı minimum 80 manat civarında formalaşdığı halda, canlı qəbulda bu rəqəm 100 manatdan başlayır.

Bəzi mütəxəssislər xidmətlərini seansın müddətinə uyğun olaraq fərqli tariflərlə təqdim edirlər. Məsələn, 45 dəqiqəlik görüşlər təxminən 70 manat, 1 saatlıq seanslar 120-130 manat civarında müəyyən edilir. Daha uzun müddətli seanslarda isə qiymətlər 140-250 manat aralığında dəyişir. Bu daha çox kompleks psixoloji dəstək və dərin terapiya proseslərini əhatə edir.

Psixoloji seansların planlanması da müəyyən qaydalarla tənzimlənir. Belə ki, vəziyyətdən asılı olaraq görüşlər adətən ayda 2-3 dəfə təyin edilir. Yəni psixoloqa müraciət edən şəxs ayda 4-5 dəfə xidmət alacaqsa, minimum 500 manat ödəyir.

### "BU, PSİXOLOQLARA EHTİYACI ARTIRIR"

Psixoloq Orxan Oruczadə son dövrlərdə psixoloji dəstəyə müraciət edənlərin sayının artmasını gözlənilən tendensiya hesab edir. O bildirir ki, müasir həyat tərzi ciddi şəkildə dəyişib: "Texnologiyanın inkişafı, şəhər həyatının sürətlənməsi, iş tempinin artması və rəqabətin güclənməsi insanların psixoloji yükünü artırır. Əvvəllər daha sıx olan sosial münasibətlər – ailə, dost, qonşuluq əlaqələri – bu gün zəifləyib. İnsanlar daha çox fərdiləşib və problemlərini paylaşmaq imkanları azalıb. Bu isə psixoloqlara ehtiyacı artırır. İnsanlar artıq yalnız problem yaşadıqda deyil, özünü inkişaf etdirmək və emosional balansını qorumaq üçün də psixoloji dəstəyə müraciət edirlər".



Orxan Oruczadə

## "Sosial şəbəkələrdə ziyanlı kontentlər mövcuddur"

Psixoloq bildirir ki, sosial şəbəkələrdə bu sahədə nəzarət mexanizminin olmaması insanların peşəkar xidmət almasına ciddi şəkildə təsir edir: "Bir tərəfdən psixoloji mövzuların gündəmə gəlməsi və maariflənmə müsbət haldır. Digər tərəfdən isə sosial şəbəkələrdə bu sahədə həddindən artıq çox, bəzən ziddiyyətli və qeyri-peşəkar kontent mövcuddur. Bu sahədə demək olar ki, heç bir nəzarət mexanizmi yoxdur. Telefonu və mikrofonu olan hər kəs özünü psixoloq, koç, mentor kimi təqdim edə bilir. Halbuki bu şəxslərin bir çoxunun nə ixtisası, nə də peşəkar hazırlığı var. Hətta bəzən onların özlərinin psixoloji və ya psixiatrik dəstəyə ehtiyacı olduğu açıq görünür. Məsələn, "3 seansda bütün problemləri həll edirəm" kimi iddialar tamamilə qeyri-elmi və məsuliyyətsizdir. Psixoterapiya uzunmüddətli, mərhələli və fərdi yanaşma tələb edən bir prosesdir".

### REKLAM VƏ SÜNİ YARADILMIŞ İMİC

Həmsöhbətimiz vurğulayır ki, sosial şəbəkələrdə digər manipulyasiya üsulu süni "növbə effekti" yaratmaqdır: "Elə bir görüntü yaradılır ki, guya qəbul üçün günlərlə gözləmək lazımdır. Halbuki real yoxlamada çox qısa müddətdə qəbul mümkündür. Reallıqda isə həmin görüntünü yaradan şəxs ofisin aylıq ödənişini necə edəcəyi ilə bağlı qayğıları ilə məşğuldur. Bu cür yanaşmalar etik kodeksin kobud şəkildə pozulmasıdır. Burada "cahillik cəsarəti" anlayışı da özünü göstərir. Yəni insan nə qədər az bilirsə, bir o qədər iddialı olur".

Psixoloji xidmətlərdəki qiymətlərə gəldikdə isə, mütəxəssis bildirir ki, qiymətlərin formalaşmasına mütəxəssisin təhsili, təcrübəsi, istifadə etdiyi metodlar və iş şərait təsir edir. Amma reallıqda qiymətlər çox zaman reklam və süni yaradılmış imic üzərindən formalaşır: "Sosial şəbəkələrdə aktiv olan və özünü intensiv reklam edən şəxslər daha yüksək qiymət tələb edir. İnsanlar da bunu keyfiyyət göstəricisi kimi qəbul edir. Eyni hal televiziya üçün də keçərlidir. Cəmiyyətdə belə bir yanlış fikir var ki, TV-də çıxış edən şəxs mütləq yaxşı mütəxəssisdir. Halbuki efir vaxtı çox zaman ödənişlidir və kanallar həmin şəxsin peşəkarlığını yoxlamır. Ən ciddi problemlərdən biri də odur ki, bu sahəyə nəzarət edən konkret bir qurum mövcud deyil. Bu boşluq bəzi şəxslər üçün sui-istifadə imkanı yaradır. Əslində bu, yeni bir problem deyil. Sadəcə, forma dəyişib. Əvvəllər insanlar falçılara, ekstrasenslərə müraciət edirdi. Bu gün isə həmin şəxslərin bir qismi özlərinə yeni adlar veriblər – psixoloq, koç, mentor, "mental təlimçi" və s".

### "BU İNSANLARDAN PSİXOLOJİ XİDMƏT ALMAQ TƏHLÜKƏLİDİR"

Psixoloq vurğulayır ki, psixoloji xidmət almaq istəyənlər ilk növbədə mütəxəssisin təhsili, ixtisası və praktik təcrübəsi ilə maraqlanmalıdırlar: "Peşəkar psixoloqlar bunu anlayışla qarşılayır və hətta təqdir edirlər. Əgər qarşı tərəf bu suallara aqressiv və ya yayınan reaksiya verirsə, bu, artıq ciddi siqnaldır. Eyni zamanda, həmin şəxsin tanınmış və etibarlı təhsil müəssisələrindən diplomu yoxdursa və ya bunu təsdiqləyən sənədləri təqdim etmirsə, ondan psixoloji xidmət almaq təhlükəlidir".



# GİRİŞ İKİ MANAT, ÇAY 20 MANAT...



**Xanbulana giriş ödənişli olsa da, ziyarətçilər üçün yetərli xidmətlər təşkil olunmayıb. Burada müasir infrastruktur, istirahət üçün lazımi şərait, turistləri məlumatlandıran sistemlər mövcud deyil.**

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Yayın gəlişi ilə daxili turizmdə canlanma yaranıb. Aviabiletlərin bahalılığı, xarici ölkələrdə tətilin hamı üçün əlçatan olmaması insanlarımızın diqqətini daha çox yerli turizmə yönəldib. Regionlarda təbiət qoynunda, dəniz, göl və çay kənarlarında dincəlmək üçün həftə sonlarını və ya məzuniyyəti fürsətə çevirənlər çoxalıb.

Digər regionlarımız kimi cənub bölgəsi də öz təbiəti ilə turistləri cəlb edir. Xüsusən Hirkan Milli Parkı və Xanbulan gölü ərazisinə piknik etmək, gözəllikdən zövq almaq istəyənlər çoxdur.

Ancaq Xanbulan gölü təbiətin bəxş etdiyi nadir gözəlliklərdən biri kimi seçilsə də, turizm baxımından gözləntiləri tam doğrultmur. Bu gözəlliyin fonunda ciddi çatışmazlıqlar nəinki diqqətdən yayınır, hətta narazılıqlara səbəb olur.

### TƏKCƏ BİR YOL AÇIQDIR, O DA PULLUDUR

Xanbulan gölü təbii deyil, süni su hövzəsidir. Əsasən su ehtiyatlarının tənzimlənməsi məqsədilə yaradılıb və bu gün də ətraf ərazilər üçün əhəmiyyətini qoruyur. Hirkan qoruğu ərazisində yerləşdiyindən ətraf ərazi nadir flora və fauna ilə zəngindir: sıx yaşıllıqlar, təmiz hava və sakit mühit bu məkanı təbiətsevənlər üçün cəlbedici edir.

Ancaq Xanbulan gölünə gedən yol təkcə təbiətə aparmır, həm də turizmə yanaşmamızın real mənzərəsini göstərir. Məsələn, iki il əvvələ qədər gölün kənarına düşmək, oralarda piknik etmək və ya dincəlmək istəyənlər üçün açıq olan yolların hamısı bağlanıb, təkcə bir giriş yolu qalıb - pullu yol. Başqa sözlə desək, burada istirahət etmək istəyənlər giriş üçün pul ödəməlidirlər. Halbuki əvvəllər gölün ərazisinə giriş pullu olmayıb. İnsanlar sərbəst şəkildə keçid edərək, təbiətdən zövq alıblar.

Hazırda əraziyə giriş ödənişli olsa da, ziyarətçilər üçün yetərli xidmətlər təşkil olunmayıb. Burada müasir infrastruktur, istirahət üçün lazımi şərait, turistləri məlumatlandıran sistemlər mövcud deyil.

Göl ərazisinə giriş üçün ödənişin tələb olunması ilə maraqlandıqda Ekologiya və Təbii Sərvətlər Nazirliyindən bildirdilər ki, Xanbulan Hirkan Milli Parkının ərazisində yerləşdiyindən Nazirlər Kabinetinin qərarına əsasən, qoruğa giriş ödənişlidir və bu, prinsip etibarilə gölə də şamil olunur: "Xanbulan gölü Hirkan Milli Parkının ərazisində yerləşdiyindən parka giriş haqqı Nazirlər Kabinetinin 114 nömrəli Qərarı ilə müəyyən edilmiş tarifə uyğun olaraq 2 AZN təşkil edir".

### STOL-STULLARDAN İSTİFADƏ EDİRSƏNSƏ, ÇAY DƏSTGAHI MƏCBURİDİR

Gölün kənarına enərkən ərazidəki ofisiantlar elan edirlər ki, ətrafdakı stol-stullardan istifadə ediləcəyi təqdirdə mütləq çay dəstgahı almaq lazımdır. Çay dəstgahının qiyməti isə 20 AZN-dir. Gölün kənarında adi skamyalar da qoyulmayıb ki, imkanı olmayan insanlar seçim edə bilsinlər. Təbiətin qoynuna istirahətə gələnlər özləri ilə ərzaq gətirsələr belə, oturacaqlardan istifadə üçün 20 manatlıq çaydan içməyə məcburdurlar.

Xanbulana Bakıdan gələn ailə gölün ərazisinə girişin pullu olmasına narazılığını gizlətmədi: "Belə bir məkanın bu şəkildə təqdim olunması onun potensialından tam istifadə edilmədiyini göstərir. Əgər giriş ödənişlidirsə, bunun qarşılığında minimum xidmət standartları təmin olunmalıdır".

Söhbətləşdiyim qonaqlardan Samir Əliyev də gölün gözəlliyindən nə qədər heyrətlənmişdisə, xidmət keyfiyyətindən bir o qədər narazı idi: "Bura istər daxili turizm, istərsə də xaricdən gələn qonaqlar üçün Azərbaycanın görülməsi mütləq olan məkanlarındandır. Müsbət tərəf odur ki, gölə gediş rahatdır, coğrafi mövqeyi əlverişlidir. Əfsus ki, neqativlər də az deyil. Gölkənarı obyektlərdə xidmət səviyyəsi aşağı, qiymətlər bahadır. Giriş üçün ödənişin tələb olunması səbəbindən onlarla turistin geri qayıtdığını müşahidə etdim. Ətrafda şəxsi avtomobillər üçün normal parkinq yerləri də azdır".

## "XİDMƏT İCARƏ MÜQAVİLƏSİ ƏSASINDA SAHİBKARLAR TƏRƏFİNDƏN GÖSTƏRİLİR"

Digər bir problem odur ki, tələb olunan ödəniş kassada deyil, gölə girişdə yığılır, yalnız tələb etdiyin təqdirdə üzərində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin adı qeyd olunan qəbz verilir. Burada turizmə xidmət üzərindən deyil, "sadəcə girişdən pul qazanmaq" kimi yanaşılır. Ərazidə alternativsiz xidmət və elementar şəraitin olmaması isə həm turistləri narazı salır, həm də turizm potensialına zərbə vurur.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəsmisi Arzu Babayevanın sözlərinə görə, Xanbulan gölünün ətrafında fəaliyyət göstərən istirahət yerlərindəki xidmətlər Milli Parkla bağlanmış icarə müqaviləsi əsasında sahibkarlar tərəfindən həyata keçirilir: "Bu obyektlərdə göstərilən xidmətlərə görə tətbiq olunan qiymətlər sahibkarlar tərəfindən müəyyən edilir və Milli Parka aid deyil". Nazirlik rəsmisi bildirdi ki, sözügedən ərazinin tullantılarla çirkləndirilməsi ilə bağlı iddialar aidiyyəti üzrə araşdırılacaq və qanunamüvafiq tədbir görüləcək.



Aytac Nəzirli

### DÜZGÜN PLANLAŞDIRMA VƏ PEŞƏKAR YANAŞMA TƏLƏB OLUNUR

Turizmçilər hesab edirlər ki, düzgün planlaşdırma və peşəkar yanaşma ilə Xanbulan gölü regionun əsas turizm mərkəzlərindən birinə çevrilə bilər. Bunun üçün infrastrukturun inkişafı, xidmət keyfiyyətinin artırılması və ərazinin daha sistemli şəkildə tanıdılması vacibdir.

Turizmçi Aytac Nəzirli bildirir ki, Xanbulan gölünün təbiəti gözəldir və piknik üçün uyğundur: "Ancaq mənfi məqamlar da var. Məsələn, yağış yağanda gölə gedən yollar bərbad olur. Ora normal yol çəkilməlidir". Turizmçi girişin ödənişli olmasından narazıdır: "Giriş axı niyə ödənişlidir? Bir təbii gözəlliyi görmək üçün biz niyə ora ödəniş etməliyik? Əgər ödəniş ediriksə, onda ən azı ətrafda təmizliyə riayət olunsun. Orada sanitar qovşağı bərbaddır. Təmizliyə riayət olunmalı, gigiyena qaydalarına əməl edilməli, ətraf mühit qorunmalıdır".

Kaspi İDMAN
ÜÇ ƏSRİN QƏZETİ
11 İYUL ŞƏNBƏ 2026
www.kaspi.az

Dünya çempionu titulu həmişə Ronaldonun karyerasında çatışmayan kubok kimi xatırlanacaq. Amma futbol tarixində onun adı daha çox başqa səbəblərdən yaşayacaq. O, Portuqaliyanı böyük turnirlərin iştirakçısından daimi favoritinə çevirən nəslin siması idi.




# DÜNYA ÇEMPİONU OLA BİLMƏDİ

2006-cı ildə Almaniyada keçirilən dünya çempionatı Kriştiano Ronaldonun mundial karyerasının başlanğıcı idi. Həmin vaxt cəmi 21 yaşı olan hücumçu Portuqaliyanın yarımfinala yüksəlməsində mühüm rol oynamışdı. O vaxt futbol ictimaiyyətində belə bir fikir hakim idi ki, bu, sadəcə başlanğıcdır, qarşıda onu daha bir neçə Dünya Çempionatı gözləyir və gec-tez futbolun ən böyük kuboku da Ronaldonun karyerasının təbii davamına çevriləcək. İyirmi il sonra məlum oldu ki, futbolda ən məntiqli görünən proqnozlar belə gerçəkləşməyə bilər.

**SON MUNDİAL**

20 il əvvəl başlayan hekayə bir neçə gün əvvəl başa çatdı. İspaniyaya məğlubiyyət Portuqaliyanın 2026-cı il Dünya Çempionatı ilə vidalaşması, Kriştiano Ronaldonun isə mundial karyerasının başa çatması demək idi. Oyundan sonra 41 yaşlı kapitan bunun son dünya çempionatı olduğunu təsdiqlədi. "Vicdanım rahatdır, ölkəm üçün bacardığım hər şeyi etdim" sözləri ilə futbol tarixinin ən zəngin fərdi karyeralarından biri Dünya Kuboku olmadan tamamlandı. Portuqaliya heyətinə görə turnirin əsas favoritlərindən hesab olunsa da, meydanda bu statusunu doğrulda bilmədi. Konqo ilə oyunda xal itkisi, Kolumbiya ilə qolsuz heç-heçə və Xorvatiya üzərində çətin qələbə göstərirdi ki, komanda oyun baxımından inkişaf etmir. İspaniyaya məğlubiyyət isə daha çox gözlənilməz sonluq yox, həmin prosesin məntiqi davamı idi.Ronaldonun bəlkə də, ən parlaq mundialı deyildi. Lakin o, bu dünya çempionatını da hədər vermədi. Qocaman forvard mundialı üç topla başa vurdu. Bu, yenə də komandadakı ən yaxşı göstərici idi.

## DÜNYA KUBOKU NİYƏ FƏRQLİ ÖLÇÜ VAHİDİDİR?

Klub futbolunda Ronaldonun fəth etmədiyi zirvə demək olar ki, qalmayıb. Beş UEFA Çempionlar Liqası kuboku, İngiltərə, İspaniya və İtaliyada çempionluqlar, 5 "Qızıl top", minə yaxın qol, saysız-hesabsız fərdi rekordlar...

Milli komandada da onun karyerasını uğursuz adlandırmaq mümkün deyil. Portuqaliya tarixində ilk dəfə məhz Ronaldonun liderliyi ilə Avropa çempionu oldu, iki dəfə UEFA Millətlər Liqasını qazandı. Kriştiano ümumən milli komandalar tarixində ən çox qol vuran futbolçu kimi tarixə düşdü. O, həm də altı fərqli dünya çempionatında qol vurmağı bacaran yeganə oyunçudur.

Bununla belə, hər zaman onun adı çəkiləndə ilk verilən suallardan biri belə olacaq: "Bəs Dünya Kuboku?" Çünki dünya çempionatı futbolun ən ciddi imtahanıdır. Klub futbolunda uğursuz mövsümün əvəzini növbəti il çıxmaq mümkündür. Mundial isə dörd ildən bir keçirilir və futbolçuya səhvini düzəltmək üçün cəmi bir neçə şans verir.

Tarix göstərir ki, burada tək istedad kifayət etmir. Ronaldonun mundial hekayəsi də məhz bu amillərin kəsişməsində formalaşdı.

## Üst-üstə düşməyən məqamlar

Ronaldonun milli komanda karyerasında diqqət çəkən əsas məqam zamanlama ilə bağlıdır. Uzun müddət Portuqaliya "Ronaldodan asılı komanda" kimi xarakterizə edilirdi. Bu yanaşmanın müəyyən əsası vardı. Xüsusilə 2010-cu illərdə Portuqaliyanın əsas yükünü məhz o daşıyırdı.

Son illərdə vəziyyət tamamilə dəyişmişdi. Artıq Bruno Fernandeş, Bernardo Silva, Vitinya, Joau Neveş, Ruben Diaş, Nuno Mendeş, Rafael Leau kimi futbolçular Avropanın aparıcı klublarında əsas simalar idilər. Bir çox mütəxəssisin fikrincə, bu, Portuqaliya tarixinin ən keyfiyyətli heyətlərindən biri idi.

Paradoks da məhz burada yaranır. Ronaldonun fiziki baxımdan ən güclü olduğu illərdə Portuqaliya bu qədər balanslı komandaya malik deyildi. Pireneylilər heyət baxımından zirvəyə çatanda isə Ronaldo artıq karyerasının son mərhələsini yaşayırdı. Başqa sözlə, futbolçunun karyerasının zirvəsi ilə komandanın zirvə dövrü üst-üstə düşmədi. Bəlkə də Ronaldonun Dünya Kuboku hekayəsini izah edən əsas səbəb məhz budur.



## Problem Kriştiano Ronaldoda idimi?

İspaniyaya qarşı oyundan sonra diqqətin yenidən Kriştianonun üzərinə yönəlməsi təəccüblü deyil. Ümumiyyətlə, onun komandanın əsas hücumçusu olması birmənalı qarşılanmırdı. Çoxları hesab edirdi ki, hətta Ronaldo olsa belə, 41 yaşlı futbolçunun kollektivə ziyanı xeyrindən daha çoxdur.

Lakin oyunların təhlilləri göstərir ki, Portuqaliyanın problemi tək bu deyildi. Heyətdə xeyli yaradıcı oyunçu olsa da, komanda kifayət qədər kreativlik nümayiş etdirə bilmirdi. Əksər oyunçular mövsüm ərzində klublarında göstərdikləri oyunu yığmada nümayiş etdirməyi bacarmadılar. Burada tənqid hədəfi daha çox komandanın baş məşqçisi Roberto Martinesdir. Daha əvvəl Belçikanın "qızıl nəsli" ilə gözlənilən nəticələri qazana bilməyən mütəxəssis Portuqaliyanı da əsas favoritlərdən olduğu dünya çempionatında 1/8 finaldan uzağa apara bilmədi. Martines ardıcıl ikinci dəfə futbol tarixinin ən istedadlı nəsillərindən birinə böyük titul qazandırmağı bacarmadı.

Dünya Kuboku Ronaldonun karyerasında həmişə çatışmayan kubok kimi xatırlanacaq. Amma futbol tarixində onun adı daha çox başqa səbəblərdən yaşayacaq. O, Portuqaliyanı böyük turnirlərin iştirakçısından daimi favoritinə çevirən nəslin siması idi. Kubok qazanmaq böyük uğurdur. Bütöv bir ölkənin futbol mədəniyyətini dəyişmək isə az oyunçuya nəsib olur.